QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 189 (5661) **6 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# Kənd təsərrüfatının inkişafı regionların tərəqqisinə zəmin yaradır

*"Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*

Səh 2




**Azərbaycan-Vatikan əlaqələri uğurla inkişaf edir** 3



**Moldovada GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib** 4



**"Stadionda keçirilən bir mitinqlə Dağlıq Qarabağ problemi ilə bağlı münasibət formalaşdırmaq olmaz"** 6



**Lyuk Koffi: "Naxçıvanın tarixiliyi və müasirliyi məni valeh etdi"** 7



**Frankafoniyanın Ermənistan "sevgisi"...** 9

**Əli Kərimlinin xəyanəti AXCP-də üsyan yaradır...** 11



14 **Qabil Hüseynli: "Zatulin ermənilərin pullu nökəridir"**



12 **Sərhədçilərin sayıqlığı nəticəsində külli miqdarda narkotik ələ keçirilib**



16 **Məsud Özil: "Bakı Olimpiya Stadionu, çox sağ ol!"**



# Kənd təsərrüfatının inkişafı regionların tərəqqisinə zəmin yaradır

## *"Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*



Azərbaycanın daxili siyasətində inkişaf şaxələndirilmiş iqtisadi strategiyaya əsaslanır. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları icra olunur. Lakin sözügedən proqramların nəticələrini ayrı-ayrılıqda nəzərdən keçirmək olmaz. Çünki bu, son 15 il ərzində gəlinən bir yoldur. Bu yol 2004-cü ildə, ilk növbədə, infrastruktur layihələrindən başlandı. Elektrik təsərrüfatına böyük investisiyalar qoyuldu. Nəticədə, ölkədə 30 elektrik stansiyası tikildi. Bu stansiyaların generasiya gücü 2500 meqavat təşkil edir. Buna qədər isə ölkədə 9 elektrik stansiyası tikilmişdi. Düzdür, onların generasiya gücü 3900 meqavat idi. Bir məqamı xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, həm də xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır.

Qlobal iqtisadi çətinliklər fonunda ölkəmizdə aqrar sektorun inkişafının güclü şəkildə dəstəklənməsi isə, təsadüfi deyil. Bu da, real faktordur ki, Azərbaycan kənd təsərrüfatının inkişafı sahəsində tarixən güclü ənənələrə malik olan ölkədir. Əlverişli coğrafi iqlim xüsusiyyətləri ölkəmizdə aqrar sektorun geniş inkişaf imkanlarına malik olmasını şərtləndirir. Eyni zamanda, həyata keçirilən səmərəli siyasət sayəsində Azərbaycanın iqtisadi potensialının və maliyyə imkanlarının artması respublikamızda kənd təsərrüfatı sahəsində mövcud olan imkanlardan istifadə edilməsinə münbit zəmin yaradır. Ölkə əhalisinin təxminən yarısının bölgələrdə yaşadığını və məşğul əhalinin 40 faizinin kənd təsərrüfatında çalışdığını nəzərə alsaq, deyə bilərik ki, aqrar sektorun inkişaf etdirilməsi sosial baxımdan da ciddi önəm kəsb edir".

Sözügedən məsələ ilə bağlı Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov kənd təsərrüfatının inkişafı, aqrar sektorun genişləndirilməsi istiqamətində görülən işlərə qiymət verərək Azərbaycan Prezidenti İlham Əliyevin kənd təsərrüfatı siyasətinin Azərbaycanın dünya miqyasında kənd təsərrüfatı məhsullarını ixrac edən ölkəyə çevrilməsinə stimul verdiyini söyləyib.

Ötən il Azərbaycan iqtisadiyyatında müşahidə olunan artımlardan söz açan E.İbrahimov qeyd edib ki, 2017-ci ildə qeyri-neft sektorunda 2,5 faiz artım olub. Onun sözlərinə görə, sənaye sahəsində qeyri-neft sektoru 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıb: "Bu, yaxşı göstəricidir. Biz həm ərzaq təhlükəsizliyi məsələlərini həll edirik, həm də kənd təsərrüfatının bizim üçün ənənəvi olan texniki sahəsini inkişaf etdiririk. Qeyd etməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumu da ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparıb. Ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdədir. Bu, yaxşı göstəricidir. Ərzaq təhlükəsizliyi ilə, xüsusilə, taxılçılıqla bağlı əlavə tədbirlər görüləcək ki, biz keçən il olduğu kimi, bu il də idxaldan asılılığı azaldaq və ixracyönümlü məhsulların həcmi artsın".

2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının icra olunduğunu xüsusi vurğulayan E.İbrahimov hazırda bu proqramların üçüncü mərhələsinin həyata keçirildiyini dilə gətirib: "Dövlət proqramlarında qarşıya qoyulan məqsədlərin hamısı, demək olar ki, icra olunur. Dövlət başçısı Nazirlər Kabinetinin iclasında kənd təsərrüfatının inkişafı məsələsini xüsusi vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, 2018-ci il də kənd təsərrüfatının inkişafı üçün uğurlu olacaq. Hökumət cari ildə də kənd təsərrüfatının inkişafı istiqamətində zəruri addımlar atacaq. Bilirsiniz ki, ötən il bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilib və bir neçə Dövlət Proqramı qəbul edilib. Dövlət başçısının qeyd etdiyi kimi, bu sahələrdə çox böyük inkişaf var. Bu sahələrə göstərilən diqqət həm iş yerlərinin yaradılmasına gətirib çıxarır, həm də ixrac potensialımızı artırır. 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min ton, 2015-ci ildə isə 35 min ton pambıq yığılıb. Göründüyü kimi, pambıqçılıq çox böyük sürətlə inkişaf edir və bu istiqamətdə nəticələr daha da artacaq. Bütövlükdə, iclasda Cənab Prezident kənd təsərrüfatının inkişafı ilə əlaqədar qarşıda duran vəzifələr haqqında fikirlərini bildirdi, tövsiyə və tapşırıqlarını verdi. Hesab edirəm ki, bu vəzifələrin yerinə yetirilməsi nəticəsində kənd təsərrüfatında daha yüksək nəticələr əldə olunacaq".

### Cari ilin yarım ili ərzində 122,3 iş yeri açılıb

2018-ci ilin birinci yarımili ərzində ölkədə 122,3 min yeni, o cümlədən 64,7 min daimi iş yerləri açılıb. Bu dövrdə yaradılan iş yerlərinin 44,2 faizi qeyri-dövlət sektorunda açılıb. Yeni iş yerlərinin 25 faizi Bakı şəhərinin, 1,1 faizi Naxçıvan Muxtar Respublikasının, 73,9 faizi regionların, o cümlədən 40,8 faizi Aran, 8,5 faizi Gəncə-Qazax, 6,8 faizi Lənkəran, 4,7 faizi Yuxarı Qarabağ, 4,5 faizi Abşeron, 3,1 faizi Şəki-Zaqatala, 2,7 faizi Dağlıq Şirvan, 2,6 faizi Quba-Xaçmaz, 0,2 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşüb.

Daimi iş yerlərinin 8,6 faizi yeni yaradılan müəssisə və təşkilatlarda, 34,3 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 56,7 faizi isə fərdi sahibkarlıq subyektləri tərəfindən yaradılıb.

Məlumata görə, hüquqi şəxslər tərəfindən yaradılan daimi iş yerlərinin 17,8 faizi tikinti, 17,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 16,1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 10,9 faizi emal sənayesi, 9,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,6 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,8 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

Bununla yanaşı, 2018-ci ilin birinci yarımili ərzində ölkədə 22,6 min iş yeri bağlanıb. Bu dövrdə bağlanan iş yerlərinin 91,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 74 faizi fərdi sahibkarlıq subyektlərinin, 5,7 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 20,3 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanıb.

Təkcə bir faktı qeyd edim ki, 2004-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollara bərabər idi. İlk regional inkişaf proqramının icrası bu rəqəmlə start götürmüşdü. Əslində, heç bir hökumət cəmi 1,8 milyard dollar valyuta ehtiyatları vəsaitiylə belə böyük bir yükün və vəzifələrin altına risk edib girməzdi. Ancaq Azərbaycan hökuməti regionlarının inkişafı, bölgələrdə yaşayan vətəndaşların güzəranı, həyat səviyyəsi onun üçün prioritet təşkil etdiyindən buna getdi.

Ənənəvi hal alan ölkə Prezidenti İlham Əliyev cənub zonasına səfəri zamanı deyib ki, bu sahədə qəbul edilən dövlət proqramları kənd təsərrüfatı sahəsinin şaxələndirilməsinə geniş imkanlar açacaq: "Ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı ölkədə mühüm işlər görülür. Hazırda əsas ərzaq məhsullarına olan tələb ödənilir".

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair tədbirlər həyata keçirməkdə davam edir. Ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirilməkdədir. Onu da vurğulamaq lazımdır ki, dövlət başçısı kənd təsərrüfatına yalnız ölkənin ərzaq təhlükəsizliyini təmin edən əsas sahə kimi baxmır, həm də qeyri-neft bölməsinin aparıcı sektoru kimi yanaşır. Əgər bu gün Azərbaycan fermeri, kənd təsərrüfatı məhsulları istehsalçısı bütün vergilərdən azaddırsa, onlara əkib-becərmək üçün maddi yardım olunursa, motor yağı, yanacaq güzəştli qiymətlərlə satılırsa, aşağı faizlərlə kreditlər verilirsə, toxum, gübrə problemlərinin həllini dövlət öz üzərinə götürürsə və daha neçə-neçə əlverişli şərait, işgüzar mühit yaradırsa, stimullaşdırıcı tədbirlər görürsə, bu, ilk növbədə, Prezident İlham Əliyevdən gələn təşəbbüslərdir.

Prezident İlham Əliyev regionlara səfərləri zamanı keçirdiyi müşavirələrdə azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstəkdən danışarkən, bildirib ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur. Beləliklə, göstərilən faktlar, onu bir daha sübut edir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və kənd təsərrüfatının bütü sahələrinin inkişafı isə Azərbaycanın ixrac potensialını artıracaq ki, bu da həm ölkəyə valyuta axınını artıracaq, həm də Azərbaycan məhsullarının dünya bazarlarına çıxışını sürətləndirəcək. Ən əsası isə ərzaq təhlükəsizliyinin təmin olunmasına yol açacaq. Təsadüfi deyil ki, elə Prezident İlham Əliyev çıxışlarında ənənəvi olan sahələrin uğurla inkişaf etdirildiyini də bildirib: "Pambıqçılıq. Biz pambıqçılığın şöhrətini bərpa etdik. İki il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı. İki müşavirə keçirildi - Sabirabadda və Saatlıda. Tütünçülük, fındıqçılıq və baramaçılıq sürətlə inkişaf edir. Qax rayonunda müşavirə keçirildi və tütün sahələri 3200 hektara çatdı. Fındıq bağlarının sahəsi 55 min hektara çatdı, 80 min hektara çatacaq. Barama istehsalı isə indi ölkəmizin bütün bölgələrində geniş vüsət alıb".

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Kənd təsərrüfatı xərclərinin dövlət büdcəsindəki xüsusi çəkisinin ilbəil artırılması isə, onu deməyə əsas verir ki, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevriləcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan Rayon İcra Hakimiyyəti başçısının vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Vaqif İdris oğlu Abdullayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaysan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında Fərman imzalayıb.

# Azərbaycan-Vatikan əlaqələri uğurla inkişaf edir





***Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti ilə də diplomatik münasibətləri yüksək səviyyədə qurub. İkitərəfli münasibətlərin qurulmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Ulu Öndər Heydər Əliyevin 1997-ci il sentyabrın 26-da Vatikana rəsmi səfəri və Roma Papası II İohann Pavellə görüşü bu əlaqələrin dərinləşməsində və möhkəmlənməsində mühüm rol oynayıb.***

2002-ci ildə Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin, ilk dəfə olaraq, Azərbaycana rəsmi səfəri zamanı Ulu Öndər Vatikan rəhbərini dinindən, dilindən və irqindən asılı olmayaraq, bütün bəşəriyyətin dostu və dünya vətəndaşı adlandırmışdı. II İohann Pavel isə Azərbaycanı Şərq ilə Qərbin arasında qapı olan bir məkan kimi xarakterizə etmişdir.



Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin fevralında İtaliyaya rəsmi səfəri zamanı Vatikanda olması ölkələr arasında əlaqələrin daha da dərinləşməsinə töhfəsini vermiş oldu. 2008-ci ildə Müqəddəs Taxt-Tacın Dövlət katibi kardinal Tarçiziyo Bertonenin Azərbaycana səfər etməsi bu əlaqələrin davamlığına dəlalət edir. Görüşdə ölkəmizdə müxtəlif din və icmalar arasında dözümlülüyün yüksək səviyyədə olduğu bildirilib. Həmçinin, Azərbaycanla Vatikan arasında münasibətlərin perspektivləri və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Həmin gün Bakıda Müqəddəs Məryəm Ana katolik kilsəsinin rəsmi açılış mərasimi olub. Prezident İlham Əliyev və kardinal Bertone mərasimdə iştirak ediblər. Müasir üslubda tikilən və 1256 kvadratmetr sahəsi olan kilsə Vatikan Dövləti tərəfindən maliyyələşib. Kilsənin eyni vaxtda 250-300 nəfərin ibadət edə biləcəyi salonu var. Prezident İlham Əliyev mərasimdəki çıxışında Bakıda katolik kilsəsinin açılmasını Azərbaycanın gələcək inkişafı, dünya birliyinə inteqrasiyası, Avropa ilə gözəl münasibətlərin davam etdirilməsi baxımından əhəmiyyətli hadisə hesab edib. Prezident öz çıxışında bildirib ki, Azərbaycan çoxmillətli ölkədir: "Biz bununla fəxr edirik və Azərbaycanda yaşayan bütün milli azlıqlara öz qayğımızı göstəririk və bundan sonra da göstərəcəyik. Azərbaycan o ölkədir ki, burada bütün dinlər sərbəst fəaliyyət göstərir. Eyni zamanda, din dövlətdən ayrıdır, Azərbaycan dünyəvi dövlətdir və bu da bizim üçün çox vacib olan məsələdir. Biz bütün dinlərə böyük hörmətlə yanaşırıq və Azərbaycanda bütün dinlərin fəaliyyəti üçün şərait var...".

### "...SİVİLİZASİYALARARASI DİALOQ YAŞAYIR, DAVAM EDİR, GÜCLƏNİR VƏ BİZ ÇALIŞIRIQ Kİ, BU DİALOQA YENİ TƏKAN VERƏK"

Mövcud əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri də müstəsnadır. Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın Müqəddəs San Marçellinio və Pietro katakombaları əsaslı təmir və bərpa edilmişdir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilmişdir. Bu Vatikanda ilk müsəlman ölkəsinin sərgisi idi.

2016-cı il 2 oktyabr tarixində katoliklərin lideri Roma Papası Fransiskin Azərbaycana səfəri dinlərarası, məzhəblərarası toqquşmaların baş verdiyi bir dönəmdə mühüm əhəmiyyət daşıyır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra bu Vatikan başçısının Azərbaycana ikinci səfəri idi. Vatikan başçıları, adətən, əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Lakin Azərbaycan istisnadır. Azərbaycanda katoliklərin sayının bir neçə yüz nəfər olmasına baxmayaraq, respublikamızda hökm sürən dini sabitlik Vatikan tərəfindən də maraqla qarşılanır. Prezident İlham Əliyev Roma Papasının Azərbaycana səfərini tarixi hadisə adlandırmışdır. Dövlət başçısı bu səfərin Vatikan-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəyini qeyd edib: "Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər, bir də onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək... 2012-ci ildə diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Vatikan muzeylərində Azərbaycan sərgisi keçirilib. İlk müsəlman ölkəsinin sərgisi, məhz Azərbaycan sərgisi idi".

### VATİKAN İLƏ AZƏRBAYCAN ARASINDA ƏLAQƏLƏR ÖLKƏMİZİN DÖVLƏTLƏRARASI QURDUĞU DOSTLUQ, QARŞILIQLI ƏMƏKDAŞLIQ MÜNASİBƏTLƏRİNİN GÖSTƏRİCİSİDİR

Papa Fransisk isə çıxışında ölkəmizdə hökm sürən tolerantlığa xüsusi toxunmuş, müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasındakı sabitliyi, ahəngdarlığı yüksək qiymətləndirmişdir. Din xadimləri ilə dövlət xadimlərinin görüşməsi sülhün, əmin-amanlığın bərqərar olmasına töhfədir. Bu səfər də, beynəlxalq aləmə bir daha göstərdi ki, Azərbaycan dini və etnik toleratanlıq nümunəsidir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsini qəbul etməsi bu əlaqələrin dərinliyinin göstəricisidir. Dövlətimizin başçısı Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq, bizim bu günə kimi Roma Papası Fransiskin Azərbaycana səfərinin təəssüratı altında olduğumuzu bildirib. Prezident İlham Əliyev onun ölkəmizdə olarkən Azərbaycanla yaxından tanışlığının, insanlarla təmasda olmasının, eləcə də, Azərbaycandakı dini icmaların nümayəndələri ilə görüşünün önəmini qeyd edib. Dövlət başçısı mədəniyyət sahəsindəki əlaqələrimizin xüsusi əhəmiyyət daşıdığını və bu əməkdaşlığın ikitərəfli münasibətlərin yaxşı əlaməti olduğunu bildirib. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan-Vatikan əlaqələri bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər. Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir. Bu əlaqələr ölkəmizin xarici siyasətinin uğuru kimi dəyərləndirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Moldovada GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib

***Dünən Moldovanın paytaxtı Kişineu şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, quruma üzv olan ölkələrin hökumət başçılarının iştirak etdiyi toplantıda ölkəmizi Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.***




İclasda GUAM-a üzv ölkələr arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin inkişafı, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin perspektivləri, dondurulmuş münaqişələrin həlli istiqamətində yeni fəaliyyət proqramının hazırlanması məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Azərbaycanın GUAM-a üzv dövlətlərlə hərtərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini bildirən Baş nazirin müavini Əli Əhmədov son illər ölkəmizin iştirakı ilə bölgədə həyata keçirilən beynəlxalq infrastruktur layihələrinin səmərəli nəticələrindən bəhs edib. Ötən il Qərblə Şərqi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyini diqqətə çatdıran Əli Əhmədov bu layihənin GUAM-a üzv olan ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişaf etdirilməsinə əsaslı zəmin yaratdığını bildirib.

Baş nazirin müavini qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduğu destruktiv mövqe, bölgədə sülh və əmin-amanlığa təhdid olmaqla yanaşı, GUAM-a üzv ölkələrin inkişafına ciddi xələl gətirir.

Görüşün iştirakçıları GUAM-a üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində həmrəy olduqlarını bildiriblər.

Toplantıda çıxış edən Moldovanın Baş naziri Pavel Flip, Ukraynanın Baş naziri Vladimir Qroysman və Gürcüstanın Baş naziri Mamuka Baxtadze təşkilatın fəaliyyət göstərdiyi illərdə beynəlxalq arenada qazandığı nailiyyətlərdən, qurumun qarşısında duran vəzifələrdən bəhs ediblər. GUAM ölkələri arasında azad iqtisadi zonanın yaradılması, sabit inkişafın təmin edilməsi, nəqliyyat, energetika, turizm, elm və mədəniyyət sahələrində mövcud olan əlaqələrin intensivləşdirilməsi və inteqrasiya proseslərinin gücləndirilməsi məsələlərinin müzakirəsinin vacibliyini vurğulayıblar.

Sonra GUAM-a üzv olan ölkələrin hökumət başçılarının və quruma üzv olan ölkələrin gömrük idarələri arasında dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində birgə əməkdaşlıq haqqında protokol imzalanıb. GUAM ölkələrinin hökumət başçıları qurumun gələcək strategiyası ilə bağlı mətbuat konfransı keçiriblər.

# Azərbaycan-Moldova əməkdaşlığının perspektivləri müzakirə olunub



Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov oktyabrın 5-də Kişineuda Moldovanın Baş naziri Pavel Flip ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Moldova arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin daha da inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Əli Əhmədov bildirib ki, ölkələrimiz GUAM çərçivəsində dinamik əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda eyni mövqe tuturlar. Baş nazirin müavini Azərbaycan iqtisadiyyatının son nailiyyətlərindən, dövlətimizin təşəbbüsü ilə həyata keçirilən qlobal energetika və nəqliyyat layihələrindən danışıb. Eyni zamanda, vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün ağır vəziyyəti ölkəmiz üçün başlıca problem olaraq qalır.

# Mixail Zabelin: Bütün dünyadan gələn qonaqlar Azərbaycanın inkişafının şahidi olacaqlar



***Budəfəki forum Azərbaycanda keçirilən ilk beynəlxalq tədbir deyil. Keçən il Bakıda "Rus icması - 20 il yeni Azərbaycanın xalqları ailəsində" mövzusunda respublika konfransı keçirilib. Builki nüfuzlu forumun işində Misir, Almaniya, Serbiya, Belarus, Çexiya, Rusiya, Latviya, Kanada, Ukrayna, Bolqarıstan və digər ölkələrdən gələn nümayəndə heyətləri iştirak edəcəklər. Ölkəmizin qonaqlarına respublikamızın və bizim doğma Bakı şəhərinin inkişaf səviyyəsini nümayiş etdirmək bizim üçün çox vacibdir.***

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisinin deputatı Mixail Zabelin bu sözləri AZƏRTAC-a müsahibəsində M.Zabelin belə bir forumun M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında keçirilməsinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bütün dünyadan gələn qonaqlar Azərbaycanın inkişafının şahidi olacaqlar. Rus icmasının rəhbəri daha sonra deyib: "Azərbaycanda bərqərar olmuş tolerantlıq və multikulturalizm ab-havasını, həm rus dilinə, həm də bütün başqa dillərə xeyirxah münasibəti qonaqlarımıza nümayiş etdirmək bizim üçün vacibdir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif millətlərin nümayəndələri öz ana dilində təhsil almaq hüququna malikdir. Prezident İlham Əliyev həmişə vurğulayır ki, ölkəmizə gələn qonaqları Azərbaycan xalqının mədəniyyəti və məişəti ilə tanış etmək lazımdır, qoy onlar ölkəmizin yüksək inkişaf səviyyəsini öz gözləri ilə görsünlər. Forumun Bakıda keçirilməsi təşəbbüsünü beynəlxalq təşkilatlar - Moskva Dövlət Pedaqoji Universiteti (MDPU) və Rus dili və ədəbiyyatı müəllimlərinin Beynəlxalq Assosiasiyası irəli sürüb. Onlar Azərbaycanda rus dilinə və başqa mədəniyyətlərə necə qayğı və həssas münasibət bəsləndiyini görürlər".

M.Zabelin bildirib ki, forum iştirakçıları sabah Azərbaycanın İsmayıllı rayonundakı İvanovka kəndinə yola düşəcəklər. Qonaqlar həmin kənddə yığcam şəkildə yaşayan rus əhalisinin həyat şəraiti ilə tanış olacaqlar. Forum iştirakçıları İvanovkada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə tikilmiş yeni məktəbə də baş çəkəcəklər.

# Hikmət Babaoğlu: "Zatulin erməni separatizmini dəstəklədiyini nümayiş etdirir"

"Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədr müavini Konstantin Zatulin ilk dəfə deyil ki, Ermənistanın işğalçılıq siyasətini və erməni separatizmini dəstəklədiyini nümayiş etdirir". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.



O bildirib ki, Zatulinin fikirləri təmsil olunduğu siyasi fraksiyanın və Rusiyanın rəsmi siyasi mövqeyinə ziddir: "Azərbaycan və Rusiya qədim tarixi köklə malik olan tərəfdaşlardır. Hazırda hər iki ölkə arasındakı münasibətlər strateji müttəfiq səviyyəsindədir. Əgər regionda Azərbaycan və Rusiyanın qarşılıqlı əlaqələri, təhlükəsizliklə bağlı ortaq tədbirləri olmasa, regional təhlükəsizlikdən və hər iki ölkənin birgə təhlükəsizliyindən söhbət belə gedə bilməz. Elə bu yaxınlarda MDB dövlət başçıları şurasının Düşənbə şəhərində keçirilən iclasında bir daha MDB ölkələrinin təhlükəsizliyinin təmin olunması, iqtisadi əlaqələrin dərinləşdirilməsi, humanitar mədəni və hərbi sahədə əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirə olundu. Rusiya prezidenti Vladimir Putinin bu kimi məsələləri dəstəklədiyi bir vaxtda Zatulinin bel məsuliyyətsiz açıqlamaları həm də Rusiyanın rəsmi siyasətinin əleyhinə olan açıqlama kimi dəyərləndirilməlidir".

H. Babaoğlunun sözlərin görə, çünki Rusiya Federasiyası Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həll olunması üçün ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi fəaliyyət göstərir: "Çox təəssüf ki, Zatulin bunları nəzərə almadan sadəcə erməni lobbisinin təsiri altında separatçıları dəstəkləməkdə davam edir. Biz bilirik ki, bu, birinci hadisə deyil. Vaxtilə qondarma Dağlıq Qarabağ Respublikası adlandırılan qurumun təşkil etdiyi siyasi şouda da siyasi müşahidəçi kimi iştirak etmişdi və yenə işğalçıları dəstəkləyən bəyanatlar vermişdi. Yaxşı olardı ki, Zatulin Ermənistanda və Dağlıq Qarabağda olarkən orada soydaşlarının olub olmaması ilə də maraqlanaydı. Onlar necə yaşayırlar və rus dilinə və mədəniyyətinə münasibət necədir? Axı Zatulinin Dövlət Dumasında tutduğu vəzifələrdən biri də Rusiyadan kənarda yaşayan soydaşlarla əlaqələr üzrə komitə sədrinin müavini olmaqdır. Mən əminəm ki, axtarsa belə nə Qarabağda, nə də Ermənistanın əksər ərazilərində bir dənə də olsun rus millətinin nümayəndəsini tapa bilməzdi. Rus mədəniyyətinə və rus dilinə münasibətə gəldikdə isə, ermənilərin bu mədəniyyətə və dilə qarşı necə aqressiv yanaşdıqlarını müşahidə etmiş olardı. Çünki Nijde Qaraginə kimi bir faşistə heykəl ucaldan ölkədə rus tapmaq olduqca çətindir".

Deputat qeyd edib ki, hazırda Ermənistan öz işğalçılıq siyasətində Rusiyadakı Zatulin kimi adamlardan dəstək almaqla bəraət qazandırmağa və çalışır: "Yaxşı olardı ki, Zatulin ilk növbədə Rusiyanın həqiqi dostu və müttəfiqinin kim olduğunu nəhayət dərk etsin və öz mövqeyini həqiqətən rus xalqının maraqları ilə uzlaşdıra bilsin. Son dövrlərdə Rusiya-Azərbaycan münasibətləri daha da dərinləşir. Bu yaxınlaşma heç şübhəsiz ki, regionda iqtisadi inteqrasiyanı gücləndirməklə, həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemlərinin həll olunması üçün yeni şərtlər formalaşdırır. Görünür, Zatulinin bu cür təxribatçı bəyanatlar verməsinə səbəb də onun ermənipərəst mövqeyidir. Rusiya-Azərbaycan münasibətlərinin yaxınlaşması və problemlərinin həll olunmasını istəmir. Əlbəttə ki, Zatulinlər Rusiya Federasiyasının rəsmi siyasətini müəyyən edən şəxslər deyil. Rusiya-Azərbaycan münasibətləri bundan sonra da inkişaf edəcək və regionda ədalətli və qalıcı sülhün bərqərar olması üçün iki ölkə əlindən gələni edəcək".

# Avropa Parlamentinin separatizmi və etnik təmizləməni təşviq edən embisili

*Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfərlər edən AP-nin Kipr Respublikasından olan üzvü Eleni Teoxarus avropalı erməni lobbistləri tərəfindən maliyyələşdirilir*



Avropadakı erməni lobbisinin nümayəndələri hər bir cəhddə çalışırlar ki, dünya ictimaiyyətində Ermənistan tərəfindən işğal edilən və Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağla bağlı yanlış təsəvvür yaratsınlar. Bununla bağlı müxtəlif vasitələrə əl atan ermənilər bu işə avropalı siyasətçiləri də qarışdırmaqdan çəkinmirlər. Əlbəttə ki, burada avropalı siyasətçilərin də şəxsi təşəbbüsləri var. Amma bu təşəbbüsü göstərənlərin Avropa Parlamentini təmsil etməsi bu quruma qarşı olan şübhələri daha da artırır.

Söhbət AP-nin Kipr Respublikasından olan üzvü Eleni Teoxarusdan gedir. Bir çoxlarına Azərbaycanın işğal edilmiş ərazilərinə etdiyi qanunsuz səfərləri və bunun nəticəsində, ölkəyə "girişi arzu olunmayan şəxslər siyahısına" daxil edilməsi və haqqında AR Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılması ilə tanınan E.Teoxarus haqqında geniş ictimaiyyətə bəlkə də bəlli olmayan bəzi məqamlara aydınlıq gətirmək istərdik.

Siyasi karyerasına 2001-ci ildə Limasol bölgəsindən Kiprin Nümayəndələr Palatasına üzv olaraq seçilməklə başlayan E.Teoxarus 2009-cu ildən etibarən AP-də Avropa Xalq Partiyası siyasi qrupunun üzvü qismində fəaliyyətə başlayır. Kiprdə 2016-cı ildə qanunvericilik seçkilərdən öncə, siyasi baxışlarında olan ayrı-seçkilik səbəbi ilə sağ təmayüllü mühafizəkar Demokratik Yürüş Partiyasını tərk edən və özünün millətçi Həmrəylik Hərəkatı Partiyasını quran Teoxarusun, Disy-ni tərk etməsinin əsas səbəbi partiyanın Kipr adası məsələsinin iki zonalı həlli yoluna olan baxışına qarşı çıxması olub. Təsadüfi deyil ki, radikal millətçi baxışları ilə seçilən və "Kipr Respublikasını xilas edək" şüarı altında fəaliyyət göstərən bu deputat öz fəaliyyətinin əsas hədəfini, məhz anti-Türkiyə istiqamətini müəyyən edib. AP üzvlüyü dövründə Parlamentin üzvlərinin Avropa Komissiyasına onları maraqlandıran bu və digər məsələlər ilə bağlı yazılı suallarla müraciət etmək prosedurundan faydalanaraq, 2014-cü ildən etibarən deputat tərəfindən Komissiyaya ünvanlanan 45 sualın böyük əksəriyyəti Türkiyə əleyhinə yönəlib.

Deputatın siyasi baxışlarının onun Ermənistan və erməni diasporu ilə olan əlaqələrini, eləcə də, Rusiyaya isti münasibətlərinə aydınlıq gətirməyə müvafiq zəmin yaradır. Hələ 1990-cı illərdən həkimlik fəaliyyəti çərçivəsində Ermənistan və erməni lobbiçilik torunun alətinə çevrilən deputat ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində "humanitar missiya" fəaliyyəti altında cərrahiyyə əməliyyatları həyata keçirmiş və bu xidmətlərinə görə "Dağlıq Qarabağın şərəf qızıl medalına" layiq görülüb. Maraqlıdır ki, peşəkar cərrah, Hippokrat andı içmiş həkim E.Teoxarus erməni silahlı qüvvələri tərəfindən 1993-cü ildə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonları işğal edilən zaman yüz minlərlə insanın üzləşdiyi etnik təmizləməyə, 1992-ci ilin 26 fevral tarixində Xocalı şəhərində yalnız bir gecədə 613-dən nəfər mülki azərbaycanlının qətliamına göz yumaraq, nədənsə, "humanitar" xidmətlərini Dağlıq Qarabağın erməni icmasına təklif etməklə kifayətlənib.

E.Teoxarusun Ermənistan və erməni diaspora təşkilatlarının sifarişi əsasında Azərbaycan torpaqlarının hərbi işğalı və nəticədə yaradılmış qondarma separatçı rejimin beynəlxalq müstəvidə, xüsusilə də, AP çərçivəsində təşviqi fəaliyyəti göz qabağındadır. Deputatın Azərbaycanın işğal edilmiş DQ bölgəsinə etdiyi çoxsaylı qanunsuz səfərlərdən yalnız sonuncusuna (2018-ci ilin 27 sentyabr tarixində) nəzər yetirmək kifayətdir. Deputatı səfər boyu müşayiət edən və ona DQ-də əsl gəzinti turu təşkil edən Kaspar Karametyan, bəli, Avropada erməni işğalını legitimləşdirmək istiqamətində fəaliyyət göstərən o şəxs.

Diqqətimizi cəlb edən bir məqam ondan ibarətdir ki, AP üzvü qismində üçüncü tərəf vasitəsilə maliyyələşdirilən tədbirlərdə iştirakına dair açıqlama vermək məcburiyyətində olan E.Teokarus bu günədək Azərbaycanın işğal edilmiş ərazilərinə çoxsaylı səfərlər etməsinə rəğmən AP-nin rəsmi internet səhifəsində yalnız 2017-ci ilin fevral ayında Dağlıq Qarabağda keçirilən qondarma "referendumda" iştirakla bağlı səfərinə dair bəyanat yerləşib.

Avropa Parlamentinin üzvü E.Teoxarus Azərbaycanın işğal edilmiş ərazilərinə səfər edir, etnik separatçılığı dəstəkləyən qızışdırıcı mövqedən çıxış edir, Avropa Parlamenti isə, bütün bunlara kiçik bir xəbərdarlıq etməklə, münasibət bildirir. Belə hallar yolverilməzdir və Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin ruhuna ziddir. Eyni zamanda, E.Teoxarusun səfərləri avropalı erməni lobbistləri tərəfindən maliyyələşdirilir ki, bu da ayrıca bir hüquq pozuntusudur. Bəzən olmayan hadisəyə görə ittiham edilən parlamentarilərdən fərqli olaraq, Teoxarusa heç bir cəza növü tətbiq edilmir. Bu, hüquqla siyasi manipulyasiya etməkdir. Hüquq qarşısında Avropa İttifaqına üzv olan ölkələr də, Avropa İttifaqı ilə yaxın əməkdaşlıq içərisində olan ölkələr də bərabər olmalıdır. Hər hansı bir ölkənin ərazi bütövlüyü daha çox qiymətli, digərininki isə dəyərsiz ola bilməz. Bu, hüquqi qeyri-bərabərlik və ədalətsizlik olardı. Ona görə də, Avropa Parlamenti öz üzvü haqqında, Nizamnaməsinə uyğun olaraq, ciddi cəza tədbirləri görməlidir.

Ona görə də, qanunsuz səfərlərinin hər birini Avropa Parlamentinin üzvü mandatından sui-istifadə etməklə və bir növ AP-nin rəsmi nümayəndə heyətinə rəhbərlik edirmiş kimi qələmə verməyə çalışan, E.Teoxarusun bu fəaliyyətinin AP üzvlüyündən sui-istifadə halı kimi araşdırılması, eləcə də, onun xaricdən maliyyələşən səfərləri haqqında AP-yə müvafiq açıqlama verməsi məsələsinin ətraflı yoxlanılmasında bir fayda olacağını düşünürük. Nəticədə, söhbət Avropa dəyərlərinin, qanunun aliliyinin və insan hüquqlarının əsas keşikçisi olan Avropa Parlamentinin tam hüquqlu üzvündən gedir. Ümumiyyətlə, o insanların Avropa Parlamentində qalıb-qalmaması məsələsinə baxılmalıdır. Əgər Avropa Parlamenti haqdan, ədalətdən, demokratiyadan, qanunların aliliyindən danışırsa, bunu düşünməlidir.

***"Səs" Analitik Qrupu***

# Bəhruz Quliyev: "Azərbaycan dövlətinin Qarabağ probleminin həllindəki mövqeyi bəllidir"



"İlk öncə qeyd etmək istərdim ki, MDB rəsmisinin Azərbaycanla bağlı hər hansı bir qərəzli bəyanat verməsi onun açıq-aşkar hansı yanlış siyasi baxışa aid olmasını göstərir. Digər tərəfdən, Zatulinin ifadələrinin Azərbaycan-Rusiya əlaqələrinə, xüsusilə, Rusiyanın mövqeyinə heç bir aidiyyatı ola bilməz". Bu fikirləri "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Olaylar.az-a MDB ölkələri, Avrasiya inteqrasiyası və soydaşları ilə əlaqələri üzrə komitəsinin sədr müavini Konstantin Zatulinin Azərbaycan və onun işğal olunmuş əraziləri ilə bağlı söylədiyi əsassız fikirlərini şərh edərkən deyib.

Ekspertin sözlərinə görə, Azərbaycan beynəlxalq aləm də daxil olmaqla, ilk növbədə MDB məkanında ən aparıcı dövlətlər sırasında yer alır, eləcə də Rusiya ilə münasibətləri yüksək səviyyədə inkişaf edir: "Xüsusilə qeyd etmək istərdim ki, son zamanlar Azərbaycan digər sahələrlə yanaşı, hərbi sahədə də mühüm üstünlüklər əldə edib və görünür, Zatulin bu reallığı nəzərindən qaçırıb.

Həmçinin, parlamentdə çıxış edən bəzi deputatların fikirlərini Azərbaycan dövlətinin mövqeyi kimi qiymətləndirən MDB rəsmisi bununla özünü ifşa edib. Daha doğrusu, siyasi bilgisinin nə dərəcədə aşağı səviyyədə olduğunu nümayiş etdirib. Çünki Azərbaycan dövlətinin Qarabağ probleminin həllindəki mövqeyi bəllidir və torpaqlarımız sülh yolu ilə geri qaytarılmasa, Cənubi Qafqazın ən güclü ordusuna malik olan Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə həmin ərazilərimizi azad edəcək. Yəqin ki, Zatulin də bunu yaxşı bilir. Sadəcə, erməni dairələrinin təsiri altında olduğu üçün, bu qədər böyük səhvə yol verməkməcburiyyətində qalır, yaxud da onun bu cür qərəzli ifadələrlə çıxış etməsində başqa maraqları da var".

"Ümumiyyətlə, Zatulin və onun kimi çıxış edən bəzi şəxslər ermənipərəstlik baxışından çıxış etmələri ilə, əslində özlərini siyasi cəhətdən həmin dairələrə - erməni lobbisinə satdıqlarını, daha doğrusu, pula satıldıqlarını sübut edirlər", bildirən Bəhruz Quliyev bəzi xatırlatmaları da edib: "Bu adam "DQR"-də saxta "parlament seçkiləri" keçirilərkən, orada "müşahidəçilik" edib, üstəlik, bu günə qədər dəfələrlə Azərbaycan əleyhinə çıxışları ilə yadda qalıb. Məgər bunun özü belə deməyə əsas vermirmi ki, Zatulin erməni pulu, rüşvəti ilə qidalanır? Hətta deyərdim ki, o belə davam edərsə, xüsusilə də, Rusiya ilə Azərbaycan arasında artan isti və xoş münasibətlərə ermənilərin sifarişi ilə sərsəm müdaxilələr edərsə, onun bu addımı təmsil olunduğu Rusiyanın dövlət rəhbərliyi tərəfindən də kəskin şəkildə pislənə bilər. Hətta onun barəsində müəyyən ölçülər də götürülə bilmək ehtimalı yaranar ki, Zatulin bununla öz karyerasına son qoymuş olar. Bax, onda ermənilər onu lazımsız döşəmə əskisi kimi bir kənara ataraq, özlərinə yeni "yem" axtarışına çıxacaqlar. Yəni, demək istədiyim də odur ki, Zatulin bu kimi lüzumsuz addımları və bəyanatları ilə özü-özünü ifşa edir və tələyə salır". "Səs" qəzetinin baş redaktoru son olaraq bildirib ki, bu gün Zatulin və onun kimi ermənipərəstlərin bənzər fikirləri heç vaxt Azərbaycanın gücünə, qüdrətinə kölgə, Rusiya-Azərbaycan münasibətlərinin inkişafına isə xələl gətirə bilməz.

# Yaponiyanın traicy.com saytı "Azərbaycana səyahət" adlı məqalə yayıb




Yaponiyanın traicy.com saytı "Azərbaycana səyahət" adlı məqalə yayıb. AZƏRTAC xəbər verir ki, məqalə "Azərbaycan Hava Yolları" aydın şəkildə Tokioya uçuşlar planlaşdırdığını bildirir" cümləsi ilə başlayır.

Azərbaycanın son illər sürətli və dinamik inkişaf yolu keçdiyinin qeyd edildiyi məqalədə, ölkəmizin logistik mərkəzə, Şimal və Cənub, Şərq ilə Qərb arasında mühüm nəqliyyat qovşağına çevrildiyi vurğulanır. Qeyd edilir ki, sərnişin təyyarələri donanmasını genişləndirən Azərbaycan Dehli, Şanxay, Çjençjou, Banqkok, Seul, Kuala-Lumpur, Amsterdam, Vyana, Roma, Əmman, Karaçi, Qahirə, Düşənbə kimi şəhərlərlə hava əlaqəsi yaratmağı planlaşdırır. Hazırda Yaponiya ilə Azərbaycan arasında birbaşa uçuşlar yoxdur.

Məqalədə "Azərbaycan Hava Yolları" QSC barədə də ətraflı məlumat verilir. Qeyd edilir ki, ölkənin paytaxtı Bakı şəhərində yerləşən bu şirkət "Boeing-737" təyyarələrinin sayını artırmaqda davam edərək, 2018-ci ildə marşrutların sayını da çoxaltmağa çalışır. Məlumatda, həmçinin qeyd edilir ki, öz müasir arxitekturası, gözəlliyi və xidmət keyfiyyəti ilə diqqəti cəlb edən Heydər Əliyev Beynəlxalq Aeroportu ildə təqribən 7 milyon sərnişinə xidmət göstərir və onların sayını artırmaq məqsədilə iş davam etdirilir.

# Qarabağ problemi Azərbaycan dövlətinin və xalqının ümummili məsələsidir

## Siyasi mənfəətlərini güdərək, spekulyasiya edənlər bu reallığı dərk etməlidirlər

***Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və bu istiqamətdə danışıqların aparılması, ümumiyyətlə, Ermənistanın işğalçılıq siyasətinə qarşı qətiyyətli mövqenin ortaya qoyulması, bilavasitə Azərbaycan dövlətinin yeritdiyi siyasətin prioritet istiqamətidir. Məhz həmin faktoru nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, eyni zamanda ümummilli məsələ olduğuna görə, siyasi baxışlarından asılı olmayaraq, istənilən təşkilat dövlətin apardığı siyasətə yaxından dəstək olmalıdır.***



Təəssüflər olsun ki, Qarabağ probleminin ətrafında bəzi siyasi dairələr və onların rəhbərləri açıq-aşkar spekulyasiyalara yol verərək, şəxsi maraqları baxışından istifadə etməyə cəhdlər göstərirlər. Ümumiyyətlə, Azərbaycan dövlətinin və xalqının bir nömrəli problemi olan bu kimi həssas məsələdə sözdə müxalifətyönlü qüvvələrin ətraflarında süni ajiotajlar yaratmaq səyləri heç bir məntiqə sığmır. Buna misal kimi, hələ ötən həftə "Məhsul" stadionunda uzağı 1500 nəfərin toplaşdığı bir aksiyanı və orada edilən çıxışları göstərmək olar. Eyni zamanda, sosial şəbəkədə aksiyaya az insanın toplaşdığını etiraf edənlərin də fikirləri, bu cür deməyə əsas verir ki, Ermənistanın işğalçılıq siyasətinə qarşı belə bir mitinqin təşkili, sadəcə, düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Daha dəqiq desək, bənzər manipulyasiyalar işğalçıların Azərbaycanın ədalətli və haqlı mövqeyinə qarşı, necə deyərlər, "aqrument" qoymalarına şərait yaradır.

### Siyavuş Novruzov: "Stadionda keçirilən bir mitinqlə Dağlıq Qarabağ problemi ilə bağlı münasibət formalaşdırmaq olmaz"

Başqa tərəfdən, onu da qeyd edə bilərik ki, əgər "Qarabağa azadlıq" şüarı ilə Azərbaycan dövləti ümumxalq mitinqi keçirmək qərarını verərsə, həmin mitinqə yüz minlərlə insanın toplaşacağını indi də proqnozlaşdırmaq olar. Çünki bu problemin, bilavasitə həlli yönündə, məhz Azərbaycan dövləti dayanır!

Bu arada, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun fikirləri də kifayət qədər maraqlı və məntiqlidir. Belə ki, YAP rəsmisinin bildirdiyinə görə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə, bütövlükdə Azərbaycan iqtidarı, Azərbaycan xalqı məşğul olur. Belə ki, stadionda keçirilən bir mitinqlə Dağlıq Qarabağ problemi ilə bağlı münasibət formalaşdırmaq olmaz: "Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı zəruri addımları atır. Həm danışıqlarda, həm də ordunun gücləndirilməsində və yeni silahlarla təchiz olunmasında lazımi işlər görülür. Elə Bakıda keçirilən son iki hərbi parad buna daha bir nümunədir. O cümlədən, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müharibə veteranlarına, şəhid ailələrinə diqqət və qayğı, bilavasitə Dağlıq Qarabağ münaqişəsinə olan bir münasibətdir".

"Son dövrlərdə bir qrup insanın Bakıda Dağlıq Qarabağ adı altında müxtəlif kütləvi aksiyalar keçirməsinin Qarabağla heç bir bağlılığı yoxdur", deyə qeyd edən Siyavuş Novruzov digər bir mühüm amilə də diqqət çəkərək bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün danışıqlarda bu məsələni əsas şərt kimi qoyur: "Azərbaycanın ərazi bütövlüyü əsas şərt kimi gündəmdədir. Azərbaycan cəmiyyəti də bu məsələdə Prezidenti dəstəkləyir".

### "Xalq Prezidenti seçib, Ona səlahiyyət verib ki, bu hüquq Prezidentə məxsusdur"

Söz yox ki, aparılan danışıqların nəticələri və bu istiqamətdə görülən işlərin hər biri ətrafında dövlət başçımız xalqa məlumat verir və bu reallığın əsas tərəfi də budur ki, Azərbaycan Prezidenti yalnız öz xalqına hesabat verərək, Qarabağ ətrafında aparılan danışıqların mahiyyətini anladır: "Xalq Prezidenti seçib, Ona səlahiyyət verib ki, bu hüquq Prezidentə məxsusdur. İndi 1990-cı ilin təfəkküründə olan insanlar deyirlər mitinq keçirilməlidir ki, xarici təşkilatlar Prezidentə təzyiq edildiyini görsünlər. Belə çıxır ki, Azərbaycan Prezidenti hansısa güzəştə getməyə razıdır və ictimai təzyiqin nəticəsində güzəştlərə getmir. Bu nə düşüncədir, bu nə təfəkkürün məhsuludur? Prezident tərəfindən ən kəskin mövqe bildirib".

Müxalifətçi fərdlərin iddialarından biri də budur ki, onlar xalq arasında çaşqınlıq, anlaşılmazlıq salmağa cəhdlər göstərərək, əslində, Qarabağın azadlığı uğrunda deyil, kimlərinsə maraqlarına xidmət etmələri istiqamətində böyük səhvlərə yol verirlər. Əgər onlar hər hansı bir təzyiqdən danışırlarsa, demək, sifarişlər həyata keçirirlər. Çünki Azərbaycan dövləti, artıq o qədər güclənib və qüdrətli ölkəyə çevrilib ki, ona qarşı təzyiq etmək istəyənlər belə, bu addımların nə qədər səhv olduğunu anlayırlar. Təkcə, son dövrlərdə Azərbaycanın beynəlxalq siyasi arenada artan nüfuzuna diqqət yetirəsək, ölkəmizin siyasi-iqtisadi və hərbi potensialının yüksəldiyini də nəzərə alsaq, bu zaman müxalifətçilərin iddialarının nə qədər cılız olduğunu bir daha görmüş olarıq.

### "Burada hansı təzyiqdən söhbət gedə bilər, Qarabağ Azərbaycanındır. Azərbaycan həm danışıqlarda, həm də ordunun gücləndirilməsində və digər məsələlərdə buna hazırlığını sübut edib"

Siyavuş Novruzov bununla bağlı bildirib ki, Azərbaycan xalqının verdiyi səlahiyyətə uyğun olaraq, bu proseslər davam etdirilir: "Burada hansı təzyiqdən söhbət gedə bilər, Qarabağ Azərbaycanındır. Azərbaycan həm danışıqlarda, həm də ordunun gücləndirilməsində və digər məsələlərdə buna hazırlığını sübut edib".

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, bu gün özlərini "siyasi mühacir" adlandırıb, guya Azərbaycan uğrunda "mübarizə" apardıqlarını iddia edənlərin hər biri reallıqda erməni aşnalarına nökərçilik edənlər zümrəsinin təmsilçiləridirlər. Guya Qarabağ dərdinə "yandıqlarını" reklam etdirən bələlərinin hər birinin yastığının altından, çox yəqin ki, erməni pulları çıxır.

YAP rəsmisi də bu məsələ ətrafında çıxış edərək bildirib ki, Avropada oturub çağırış edənlərə Azərbaycanda dəstək verilməsi düzgün deyil: "Birinci Qarabağ müharibəsində hər bir azərbaycanlı necə döyüşüb, mübarizə aparıbsa, bundan sonra da belə olacaq. Burada "mənim və sənin" məsələsi ola bilməz. Aksiyaya qoşulmayanları qınağa məruz qoymaq nəyə xidmət edir? Dağlıq Qarabağ münaqişəsi hər hansı futbol meydaçasında həll ediləcək məsələ deyil".

Beləliklə, buradan da tam olaraq aydın görünür ki, Azərbaycan dövlətinin və xalqının ümummilli məsələsi olan Qarabağ problemi ətrafında oyunbazlıqlar edənlər bir reallığı dərk etməlidirlər ki, onların siyasi təlxəklikləri burada kimsəyə lazım deyil. Uzağı, erməni lobbisi və bu lobbiyə dəstək göstərən bir sıra xarici təşkilatlardan savayı...

***Rövşən RƏSULOV***

# Bilik Fondunun icraçı direktoru Şuraabad qəsəbə tam orta məktəbində mühazirə oxuyub



Oktyabrın 5-də Xızı Rayon İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə Şuraabad qəsəbə tam orta məktəbində Beynəlxalq Müəllimlər Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Oktay Səmədovun təhsil işçiləri ilə görüşü keçirilib. Bu barədə AZƏRTAC-a Bilik Fondundan məlumat verilib.

Görüşdə rayon icra hakimiyyətinin müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Arzu Əzizov, rayon təhsil şöbəsinin müdiri Oqtay Abdullayev, Şuraabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə İlham İsgəndərov, Bilik Fondunun ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla və Xızı rayonu üzrə nümayəndəsi Xatirə Haşımzadə, müəllim və məktəblilər, rəsmi qurumların əməkdaşları iştirak ediblər.

A.Əzizov Bilik Fondunun nümayəndələrini salamlayaraq maarifləndirici layihələrin həyata keçirilməsində əməkdaşlığın faydasından bəhs edib. Bildirilib ki, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində, dövlətə, cəmiyyətə xeyirli savadlı kadr olaraq formalaşmasında hərtərəfli maarifləndirici tədbirlərin böyük əhəmiyyəti var. Bilik Fondunun fəaliyyəti də bu baxımdan təqdirəlayiqdir. Tədbirdə O.Səmədovun "Maarifçilik missiyamızdır" mövzusunda mühazirəsi dinlənilib. O, ulu öndər Heydər Əliyevin "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır" fikirlərini xatırladaraq, dövlətin təhsilə xüsusi qayğı göstərdiyini faktlarla diqqətə çatdırıb.

Rəhbərlik etdiyi Bilik Fondunun təhsilin inkişafı istiqamətində həyata keçirdiyi layihələrdən söz açan icraçı direktor Xızı məktəblilərini, müəllimləri bu layihələrdə daha yaxından iştirak etməyə çağırıb.

Ümummilli liderin siyasətinin Prezident İlham Əliyevin uğurla davam etdirdiyini deyən O.Səmədov yüzlərlə yeni məktəblərin tikildiyini, təmir olunduğunu, təhsil ocaqlarının dünya standartları səviyyəsinə çatdırıldığını, maddi-texniki bazanın möhkəmləndiyini, informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının təsdiqləndiyini diqqətə çatdırıb. Görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan təhsil islahatları, Bilik Fondunun Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi layihələr barədə iştirakçılarla fikir mübadiləsi aparılıb. Sonda rayonun bir qrup fəal təhsil işçisinə Bilik Fondunun "Təşəkkürnamə"ləri, məktəbə kitab hədiyyələri təqdim olunub. Şagirdlər məktəb və müəllimlərə həsr olunmuş şeirlər səsləndiriblər.

# "Viva" ləqəbli buynuzlu İsgəndər

## Və ya onun barəsində leksikonumuzda yeni ifadənin yaranmasına ehtiyac var



***Bu gün Avropada oturub, "sinələrinə döyən", bu vasitə ilə guya Azərbaycan üçün "mübarizə" apardıqlarını zorla ictimai rəyə sırımağa çalışan Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Emin Milli və s. xəyanət simvollarının başında dayanan əsas isimlərdən biri də Vadidi İsgəndərlidir - "Viva" ləqəbli İsgəndər... Həmin V.İsgəndərli ki, öz siyasi mənfəətlərini əldə etməkdən ötrü, hətta mərhum atasının Göyçay rayonundakı məzarının belə murdarlanmasına (!!!-R.N.) rəvac vermişdi...***

### "Viva" deyilən zad, indi də digər siyasi fahişəlik metodundan istifadə edərək, Azərbaycan əleyhinə fəaliyyət göstərən güclərin növbəti "zakazlarını" həyata keçirməyi planlaşdırır

Daha dəqiq desək, bu planını həyata keçirərək, Azərbaycan hakimiyyətinin üzərinə qarayaxma, şər, böhtan atmağa cəhd göstərmişdi. Düzdür, bu hadisənin üzərindən artıq uzun müddət keçib. Lakin həmin hadisənin maraqlı tərəfi də budur ki, bəs nəyə görə İsgəndərli indi bu barədə bir kəlmə də olsa danışmır, sosial şəbəkələrdə canlı yayıma çıxaraq, işinə görə pulunu ala bilməyən və buna görə üz-gözünü cıran ən peşəkar fahişələrtək həyasızlıqlar etmir? Axı o, həmin zamanlar bu işin sonuna qədər gecəcəyini bar-bar bağırırdı, üstəlik, hədə-qorxu gəlməyi də unutmurdu! İndi isə onun yadına nə mərhum atası, nə də cəmiyyətimiz tərəfindən hiddətlə qınanılan həmin o hadisə düşür. Çünki onun yalanı nə ayaq tutdu, nə də ki, yeridi.

Əksinə, "Viva" deyilən zad, indi də digər siyasi fahişəlik metodundan istifadə edərək, Azərbaycan əleyhinə fəaliyyət göstərən güclərin növbəti "zakazlarını" həyata keçirməyi planlaşdırır.

### AXC-Müsavat hakimiyyəti dövründə bələdiyyə polisinin rəisi Mehdi Mehdiyev: "Vidadi İsgəndərliyə ad tapa bilmirəm..."

Bütün bunlar barədə yazının sonrakı hissəsində qeyd edəcəyik. İndi isə bir daha onun zamanında hansı qələtlərdən çıxdığını, oyunbazlıqlar törətdiyini xatırladaq. Misal üçün, hələ AXC-Müsavat hakimiyyəti dövründə bələdiyyə polisinə rəhbərlik etmiş Mehdi Mehdiyevin onun barəsində açdığı danılmaz sübutları incələyək. M.Mehdiyevi buna məcbur edən V.İsgəndərlinin bəlli davranışları və çıxardığı təlxəkliklər olub. M.Mehdiyevdən gələn sitatı nəzərdən keçirək: "...Hərçənd hər məsələyə reaksiya verən deyiləm. Mövzu isə dünyada, regionda cərəyan edən proseslər deyil, məhz Azərbaycan adından indiki həssas durumda şəxsən tanıdığım V.İsgəndərlinin, nə ad deyim, bilmirəm - sərsəmləməsimi, tərbiyəsizliyimi, satın alınmasımı, xəyanətimi, nankorluğumu, vallah, leksikonumuzda buna uyğun ad tapa bilmirəm, amma onun son hərəkətinə bir neçə epizodla münasibət bildirmək istəyirəm".

Göründüyü kimi, sabiq cəbhəçi V.İsgəndərlinin ucuzluğuna belə, uyğun ad tapılmır və bu faktın özü belə deməyə əsas verir ki, özünü onun-bunun altına yıxan İsgəndərli barədə leksikona hər hansı bir yeni ifadə əlavə olunmalıdır. Yəqin ki, qısa zamanda onun kimiləri bir-birlərini təhqir edərkən, məhz onu - V.İsgəndərlini nəzərdə tutub, "vidadilik eləmə" deyə savaşacaqlar...

### Qaqauz qızına qarşı ədəbsiz hərəkət faktı - Vidadi İsgəndərlini həbsdə başqa şey gözləyirdi, lakin...

Beləliklə, M.Mehdiyev davam edir: "Vidadi, adam "işsiz" də, "xəstə" də, "məhbus" da, "mühacir" də ola bilər. Amma bu dərəcədə şərəfsiz, ləyaqətsiz və ən başlıcası, ALLAHSIZ olmaz! Gedib oturmusan orada. Başa düşdük... Günah mən və mənim kimilərindədir ki, axı sən zamanında əxlaqsızlıq və xuliqanlıq cinayət əməllərinə görə tutulanda, 28-ci polis bölməsinin rəisi Böyükağa bəydən niyə şəxsən özüm və digər dostlar azad olunmağını xahiş etdik".

Yeri gəlmişkən, V.İsgəndərlinin törətdiyi xuliqanlıq əməli əslində, ondan da betər olub. Bir qız uşağına qarşı ədəbsiz hərəkət..!

### "Və bir insan kimi acıyıram ki, dünyanın hansı ölkəsində olsan da, bu cür nakişi davranışlarınla qulaqlarının da eşitmə qabiliyyəti saxta olacaqdır. Eynən özün kimi..."

Uzağa getməyərək, həmin hadisənin necə xatırlanmasına diqqət edək: "Yaxşı ki, qohum-əqrəbanın yalvarışları sayəsində zərərçəkən qaqauz tələbə qız iddiasını geri götürdü. Bizlər səhv etmişik. Əslində, sən "siyasi məhbus" yox, məlum əməllərinə görə müvafiq maddələrlə özün hüquqşünas olaraq təcridxanada hansı kamerada, hansı kalonda, nə müddətə cəza çəkməli olduğunu müəyyənləşdirməli idin".

Elə bu cür əxlaqsız davranışlarına görə növbəti dəfə artıq hüquq-mühafizə orqanlarına yox, bir tələbə dostuna rast gəldin. Məhz bundan sonra sənin dişlərin protez oldu. Adını yazmağa ehtiyac yoxdur. O, şərəfli tələbə, hərəkat, döyüş dostumun... Düşüncən yoxdur, bilirəm. Çiyinlərinin üstündə yumru bir orqan var - ora qulaq da aiddir. Əminəm. Və bir insan kimi acıyıram ki, dünyanın hansı ölkəsində olsan da, bu cür nakişi davranışlarınla qulaqlarının da eşitmə qabiliyyəti saxta olacaqdır. Eynən özün kimi..."

### "Bəlkə sən özünü bir "şizofrennik" olaraq, Topçubaşov, Ceyhun bəy Hacıbəyli sanırsan? O Kişilər Azərbaycan davası aparıblar..."

Ümumiyyətlə, V.İsgəndərli barədə bu reallıqları eşidərkən, bir daha şahidi oluruq ki, əslində, nə şərəfə, nə ləyaqətə, nə də ki, digər xüsusiyyətlərə heç bir aidiyyatı olmayan bu ünsür barədə nə qədər aşağılayıcı ifadə işlənilərsə, yenə də azdır. Köhnə kişilər bu cür "adamlar" haqqında danışarkən, bələlərini "qapımın həndəvərindən keçməyə qoymaram!" deyirmişlər...

Ona görə də M.Mehdiyev əlavə edir: "Sən başa düşməsən də, çox hörmət bəslədiyim böyük qardaşım İsfəndiyar bəygil bilir. Səni kim həbsdən azad elətdirib. Ayıb deyilmi? Heç utanırsanmı?

Xalq Hərəkatının ağbirçəklərindən olan, ölkə ictimayyətinin böyük hörmət bəslədiyi, bizim hamımızın isə "mamaşa" deyə müraciət etdiyimiz Novella xanım o yaşında, o səhhətində Göyçaydakı məhkəməmə sənin qardaşına görə gəlmişdi. Vidadi, yəqin ki, mənim üçdə alacağım, beşdə verəcəyim adam olmadığını bilirsən. Bəlkə sən özünü bir "şizofrennik" olaraq, Topçubaşov, Ceyhun bəy Hacıbəyli sanırsan? O Kişilər Azərbaycan davası aparıblar...

Siyasi mübarizə adı altında bu ölkənin hansı düşmənlərinin dəyirmanına su tökdüyünü biz bilirik. Bu, Azərbaycan (Qarabağ, demokratiya, insan haqları...) davası deyil. Bunun adı, sadəcə, nakişilikdir. İndi oturmusan qucaqda, tanıyıb-tanımadığın, dövlət adından çıxış edən Prezident və onun ailə üzvlərindən başlamış, sənin üstündə haqqı olan bu qədər insanların ünvanlarına nə hətərən-pətərən video paylaşırsan?" Nankor, yaramaz ünsür! Sən nə anlayarsan ki, Azərbaycan nə deməkdir? Siyasi mübarizə konstitusiya, ölkə qanunları və Azərbaycanımıza məxsus olan əxlaqi-mənəvi dəyərlərlə aparılır, ay dəyərsiz... Adam kişi olar, yekun olaraq, sən agentsən, sən xəstəsən - özün seç..."

Nəticə olaraq, "Viva" ləqəbli Vidadi İsgəndərlinin ucuz və kimsəyə lazım olmayan həyatı barədə daha bir faktı öyrənmiş olduq. Məhz bu baxımdan, əgər kimlərsə, məsələn, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Emin Milli, eləcə də, bu gün İsgəndərlini az qala "mübarizə qalası" (əslində, peyin hini-R.N.) kimi təqdim edib, onun sərsəmləmələrini dəstəkləyirsə, (məsələn, Əli Kərimli və onun ətrafı-R.N.) demək ki, onun barəsində ortaya çıxan sübutlar və həmin sübutlardan doğan ifadələr onlara da aid edilə bilər. Həmin ifadələri isə təkrarlamağa ehtiyac yoxdur. Necə deyərlər, İsgəndərin buynuzu var, buynuzu...

***Rövşən NURƏDDİNOĞLU***

# "Anna Hakopyan humanitar missiyası üçün hədəfləri düzgün seçməyib"

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Ermənistan baş nazirinin həyat yoldaşı Anna Hakopyanın irəli sürdüyü "Qadınlar Sülh naminə" təşəbbüsü və bu çərçivədə Rusiyadan bir qrup qadının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfər etmək niyyəti ilə bağlı açıqlama verib. O, SİA-ya açıqlamasında deyib ki, Ermənistan baş nazirinin həyat yoldaşı Anna Hakopyanın "Qadınlar sülh naminə" təşəbbüsünün humanitar prinsiplərdən çıxış edərək irəli sürüldüyünü şəxsən bir qadın və ana kimi anlayıram: "Güya bu təşəbbüsün əsas məqsədi gənc əsgərlərin, günahsız insanların ölümünün qarşısını almaqdır. O zaman məsələyə köklü şəkildə yanaşmaq və "Ermənistan əsgərlərinin Azərbaycanın torpaqlarında nə işi



var" sualına cavab vermək lazımdır. Anna Hakopyan humanitar missiyası üçün hədəfləri düzgün seçməyib, gənc insanların ölümünün qarşısını almaq üçün o, ilk növbədə Ermənistan cəmiyyətindən başlamalı, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına son qoymağa çağırmalı və erməni qadınlarını və analarını övladlarını Azərbaycanın işğal olunmuş torpaqlarına göndərməkdən çəkindirməlidir.

Aydındır ki, bu təşəbbüs hazırkı vəziyyətdə, xüsusilə də seçkilər öncəsi Ermənistanın daxili auditoriyasına hesablanıb. Lakin nəzərə almaq lazımdır ki, bu kimi təşəbbüslər, xüsusilə də bu çərçivədə "humanitar missiya" adı altında Rusiya Federasiyasından bir qrup qadının Azərbaycanın işğal olunmuş ərazilərinə səfərlərini təşviq etmək, Rusiyanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi mandatına uyğun gəlmir, münaqişənin həllinə xidmət etmir və Azərbaycan Respublikası Prezidenti ilə Ermənistan baş naziri arasında Düşənbədə aparılmış söhbətin ruhuna cavab vermir. Bu məsələ Azərbaycan Respublikasının Moskvadakı Səfirliyi tərəfindən Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi qarşısında qaldırılacaq".

# Lyuk Koffi: "Naxçıvanın tarixiliyi və müasirliyi məni valeh etdi"



Bu, mənim Naxçıvana birinci səfərim olsa da, qədim diyarla tanışlıq məndə böyük təəssürat yaratdı. Buradakı təmizlik və səliqə-sahman, insanların qonaqpərvərliyi, mehriban münasibəti xüsusilə diqqətimi cəlb etdi. Bir sözlə, mənim burada vaxtım çox xoş keçir. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Naxçıvan Muxtar Respublikasına səfərə gələn Amerikanın nüfuzlu düşüncə mərkəzi olan "İrs" Fondu yanında Duqlas və Sara Ellisonlar adına Xarici Siyasət Araşdırmaları Mərkəzinin direktoru Lyuk Koffi deyib.

Muxtar respublikanın bir sıra gəzməli-görməli yerlərində olan qonaq qədim diyarla bağlı təəssüratları barədə danışaraq bildirib ki, Naxçıvanın tarixiliyi və müasirliyi onu valeh edib. Lyuk Koffi deyib: "Duzdağ Fizioterapiya Mərkəzini, Naxçıvanqalanı və Nuh Peyğəmbərin türbəsini ziyarət etdim, burada gördüklərim barədə dostlarımı və yaxınlarımı da məlumatlandıracağam. Naxçıvanı daha da yaxından tanımaq üçün buraya bir daha gəlmək niyyətindəyəm".

# Milli Məclisin plenar iclası keçirilib



***Oktyabrın 5-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib. Əvvəlcə Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə olunub. Dəyişikliyə əsasən sənədin 44.5-ci maddəsi yeni redaksiyada verilir. Həmin maddədə deyilir: "Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir". Bildirilib ki, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli Qanununun icrası məqsədilə hazırlanıb.***

Bundan əlavə, Gömrük Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsi də birinci oxunuşda nəzərdən keçirilib. Qanun layihəsinə əsasən, 323.1.5-ci və 323.1.6-cı maddələri ləğv olunan sənədə "Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir" məzmunlu 323.2-1-ci maddə əlavə edilir.

Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli Qanununun icrası məqsədilə hazırlanıb.

İclasda, həmçinin Mülki Məcəllədə dəyişikliklər edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə olunub. Nəzərdə tutulan dəyişikliklərə əsasən, sənədin 49-1-ci maddəsinə "qanunla müəyyən edilmiş digər şəxslər" məzmunlu yeni bənd əlavə olunacaq. Eyni zamanda, "Hüquqi şəxsin yenidən təşkili" adlı 55-ci maddəyə "Bankların yenidən təşkili "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir" məzmunlu 55.6-cı bənd daxil ediləcək.

Qanun layihəsinə görə yerli bankların, onların filial, şöbə və nümayəndəliklərinin, habelə xarici bankların yerli filial və nümayəndəliklərinin ləğvi "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçiriləcək. Eyni zamanda, hüquqi şəxsin məhkəmə tərəfindən müflis sayılması əsasları və qaydası qanunla müəyyənləşdirilir. Səhmdar cəmiyyətin təsisi zamanı səhmlərin buraxılışı və dövlət qeydiyyatı bu Məcəllə və qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

Sənədə "Bu məcəllənin 98.4-cü, 98.5-ci və 98.11.1-ci maddələrində qeyd edilmiş məsələlərlə əlaqədar qanunda ayrı qayda nəzərdə tutulduqda, həmin qanunun müddəaları tətbiq edilir" məzmunlu 98.15-ci maddə də əlavə ediləcək. Məcəllədə, həmçinin bir sıra texniki dəyişikliklərin edilməsi də nəzərdə tutulur.

Plenar iclasda "Banklar haqqında" Qanunda edilməsi nəzərdə tutulan dəyişikliklərə də birinci oxunuşda baxılıb. Bildirilib ki, bu Qanunun 57-8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır və fəaliyyət göstərir. Bundan əlavə, cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa hüquqi şəxsə və ya fərdi sahibkara (idarəçiyə) verilə bilməz. Sənədə, həmçinin "bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək" məzmunlu 25.1.5-1-ci maddə əlavə ediləcək.

Dəyişikliyə əsasən bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən, habelə bankın digər idarəetmə orqanlarının üzvü olan şəxslər bankın Audit Komitəsinin üzvü ola bilməz və səhmdarların Müşahidə Şurasının qərarı ilə Audit Komitəsinin üzvləri vəzifəsindən azad edilməlidirlər. Bundan başqa, Qanuna bir sıra texniki dəyişikliklər də ediləcək.

İclasda Mülki Məcəlləyə dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə olunub. Bildirilib ki Məcəlləyə "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli Fərmanının 9.2-ci bəndinin icrası, habelə bu sahədə məmur-vətəndaş təmasının minimum səviyyəyə çatdırılması, şəffaflığın artırılması, sağlam və təhlükəsiz elektron informasiya mübadiləsinin təmin edilməsi məqsədilə bir sıra dəyişikliklər edilir.

Qanunla təklif olunan dəyişikliklər daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəalarının hüquqi əsasının formalaşdırılmasını, həmçinin ipoteka kağızının tərtib olunması, ipoteka qoyan tərəfindən imzalanmasını, onun notariat qaydasında təsdiqlənməsi və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur.

Deputatlar, həmçinin "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda baxıblar. Dəyişikliyə əsasən, daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı sənədsiz adlı qiymətli kağız formasında rəsmiləşdirilir. Qanun layihəsinə görə, daşınmaz əmlak üzərində ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə, dövlət qeydiyyatı orqanı elektron sistem vasitəsilə ipoteka kağızı haqqında məlumatları əldə edir. Sənədə, həmçinin "Daşınmaz əmlak üzərində ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə, ipoteka kağızında dövlət qeydiyyatını aparan orqanın adı, qeydiyyat anı (tarix və saat) və nömrəsi göstərilməklə, qeydiyyat orqanının səlahiyyətli şəxsinin elektron imzası ilə imzalanır və ipoteka saxlayana və ipoteka qoyana elektron sistem vasitəsilə bildiriş göndərilir" məzmunlu 12.7-1-ci maddə əlavə olunacaq.

Birinci oxunuşda müzakirə olunan "Lotereyalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi elektron lotereyaların da təşkili və keçirilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur və bu lotereyaların "Fərdi məlumatlar haqqında" qanuna əsasən dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsini məqsədəuyğun sayır.

Birinci oxunuşda nəzərdən keçirilən Cinayət Məcəlləsində təklif olunan dəyişikliklərə görə dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların, faydalı qazıntıların çıxarılması ilə əlaqəsi olmayan layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və ya istismarı zamanı yerin təkinin qorunması və istifadə edilməsi qaydalarının pozulması, habelə faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti aparılması əhəmiyyətli zərərə səbəb olduqda altı min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Sənədə, həmçinin "Bu Məcəllənin 255.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır" məzmunlu 255.2-ci maddə əlavə edilir. İclasda İnzibati Xətalar, Cinayət məcəllələrində, "İnzibati icraat haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyesti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə də birinci oxunuşda baxılıb.

"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklər birinci oxunuşda müzakirə edilib. Qanun layihəsinə əsasən "Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlar" adlı 3-cü maddəyə "əl-barmaq izləri" sözləri əlavə ediləcək. 9.4-cü maddədə isə "vətəndaşa" sözü "vətəndaşdan əl-barmaq izləri götürülmür, habelə ona" sözləri ilə əvəzlənir.

Birinci oxunuşda nəzərdən keçirilən "Pasportlar haqqında" Qanunda edilən dəyişikliklərə görə diplomatik pasportlar Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri nəzdində təsis edilən hərbi attaşelik aparatlarının zabit heyətinə, həmçinin beynəlxalq təşkilatlardakı hərbi nümayəndələrinə və onların müavinlərinə, eyni zamanda, müvafiq icra hakimiyyəti orqanının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinə də veriləcək.

İclasda İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda baxılıb. Sənədə "Qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulması" məzmunlu yeni 516-1-ci maddə əlavə olunub. Yeni maddəyə əsasən, dəfn barədə məlumatın dəfnlərin vahid reyestrində yerləşdirilməməsinə və ya vaxtında yerləşdirilməməsinə görə vəzifəli şəxslər 100 manatdan üç yüz manatadək məbləğdə cərimə edilirlər. Qəbiristanlıqların qorunması tələblərinin, habelə dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına görə fiziki şəxslər iyirmi manatdan əlli manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə olunacaqlar.

Bundan başqa, qəbir yerlərinin rezervasiyası tələblərinin pozulması, dəfnə icazə verilməyən ərazilərdə dəfnlərin həyata keçirilməsinə görə beş yüz manatdan min manatadək məbləğdə cərimə tətbiq ediləcək.

Plenar iclasda, həmçinin birinci oxunuşda "Bələdiyyələrin statusu haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirə edilib. Bildirilib ki, qəbiristanlıqların salınması və idarə olunması məsələlərində bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilmədiyi hallarda məsuliyyət məsələsini təmin etmək məqsədilə sənədin 4-cü maddəsinə bəzi dəyişikliklər edilməsi təklif olunur.

Birinci oxunuşda nəzərdən keçirilən "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanunda edilən dəyişikliyə əsasən sənədin 8-ci maddəsinin 2-ci bəndinin üçüncü abzasında "Bələdiyyələrin ərazisində" sözləri "Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində" sözləri ilə əvəz ediləcək. İclasda müzakirə edilən bütün qanun layihələri səsə qoyularaq təsdiq edilib. Sonra cari məsələlər müzakirələr edilib.

***Rəfiqə Kamalqızı***

# Frankafoniyanın Ermənistan “sevgisi”...

## *Yaxud Xocalı soyqırımını törətmiş işğalçı bir dövlətdə sülh, insan hüquq və azadlıqları haqqında danışmaq özü Frankafoniya ideyalarına xəyanət deyilmi?*

***Ermənistanda Frankafoniya təşkilatının tədbirlərinin keçirilməsi nəzərdə tutulur. Bu təşkilatın nizamnaməsinə, məramnaməsinə və ideyalarına diqqət yetirdikdə, heç cür anlamaq olmur ki, nə üçün Frankafoniya Ermənistanda sammit keçirmək qərarına gəlib?***

Frankafoniya təşkilatı fransızdilli ölkələri özündə birləşdirir. Dünyanın 58 dövlətini əhatə edən bu təşkilatda daha 26 ölkə müşahidəçi qismində istirak edir. Ermənistan bu təşkilatın üzvü olsa da, Yerevan Frankafoniyanın fəlsəfəsinə uyğun olmayan kriteriyalara malikdir. Çünki əsası humanizm, sülh, insan hüquq və azadlıqları kimi dəyərlər üzərində qoyulmuş bir təşkilat, XX əsrin ən böyük faciələrindən birini - Xocalı soyqırımını törədib və bunu ən yüksək səviyyədə dəfələrlə utanmadan və qürur duyaraq etiraf etmiş bir dövlətin ərazisində, nəinki özünün zirvə görüşünü keçirməklə, hətta bu dövləti üzvlüyə qəbul etməklə nizamnaməsinə xəyanət edib. Digər tərəfdən, Frankafoniyanın əsasında fransiz dili amili durur. Amma Ermənistanı, heç bir halda, fransız dilli ölkə adlandırmaq olmaz. Ona görə də, Ermənistanın bu təşkilata götürülməsi hansı amilə əsaslanıb?

Eyni zamanda, dünyada sülhün dəstəklənməsini təşviq edən bu təşkilatın nümayəndələrinin işğalçı bir ölkədə sammit keçirməsi təmsil olunduqları dövlətlərin Azərbaycanla olan münasibətlərinin ruhuna ziddir. Çünki təşkilat üzvləri ayrı-ayrılıqda və ya beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını tanımışdır və hətta bir çox hallarda qəti şəkildə pisləyib. Üzvlərin bir qismi Avropa Şurasında və digər bir qismi İslam Əməkdaşlıq Təşkilatında Dağlıq Qarabağın işğal faktını təsdiqləyib.

Ermənistan bir ölkə olaraq, hal-hazırda səfalət içərisində yaşayır. Sıravi erməni vətəndaşlar ailələrini dolandırmaq üçün xarici ölkələrə üz tutur, oralarda nökərçilik edirlər. Ermənistan dövləti isə, xarici ianələr hesabına mövcudluğunu davam etdirir. Belə bir vaxtda bu qədər xarici qonağı qəbul etməyə Ermənistanın nə maddi imkanı, nə də logistik şəraiti var. Nümayəndə heyətlərini qarşılamaq üçün xüsusi avtomobillər, həmçinin, qonaqların yerləşdirilməsi üçün mehmanxana belə tapılmır. Ermənistanda kimin kimə və nəyə xidmət etdiyi məlum deyil. Öz vətəndaşlarının təhlükəsizliyini təmin edə bilməyən bir dövlət bu qədər qonağın təhlükəsizliyini necə təmin edə biləcək? Təkmillətli və təkdinli bir cəmiyyət bu qədər fərqli etnik struktura, inanca, dünyagörüşünə malik insanlara nə qədər dözümlülük göstərə biləcək? Təhlükə hiss etdikdə, öz xalqını belə güllələbaran etməyə çəkinməyən Ermənistan güc strukturları nümayəndə heyətlərinin qeydinə qalacaqmı?

Ümumiyyətlə, Ermənistan hər zamankı kimi təxribatçı əməllərə əl atmağa, tədbirin gündəliyinin siyasiləşdirilməsinə çalışa bilər. Nəzərə almaq lazımdır ki, sammitdə iştirak edən üzv dövlətlər arasında Azərbaycana dost münasibətdə olan İslam Əməkdaşlıq Təşkilatı üzv dövlətləri, Avropa və Asiya ölkələri də vardır. Bu mənada, Ermənistan yekun sənədə Azərbaycanın maraqlarına zidd olan müddəa təklif edərək, həmin ölkələrin Azərbaycanla münasibətlərinə də zərbə vurmağa çalışacaq. Lakin Avropa Şurası və İƏT-ə üzv, eləcə də, digər dost ölkələrin sammitdə iştirak etməsi həm tədbirin gedişində, həm də yekun sənəddə Ermənistan hakim dairələrinin Azərbaycana qarşı propaqanda məqsədli addımına mane olacaq. Elə Frankafoniya təşkilatının lideri hesab olunan Fransanın özünün Minsk Qrupunun həmsədri kimi neytrallığını, imicini və bir tərəfdaş kimi Azərbaycandakı iqtisadi maraqlarını qorumaq naminə Ermənistanın özündə belə bir təxribatçı addımı əngəlləyən əsas ölkə olacağına ümid edirik.

***“Səs” Analitik Qrupu***

## Millət vəkili: “Zatulinin fikirlərini qətiyyətlə pisləyirik”

Milli Məclisin deputatı Çingiz Qənizadə dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclasında Rusiya Dövlət Dumasının komitə sədrinin müavini Konstantin Zatulinin Azərbaycan əleyhinə səsləndirdiyi növbəti aqressiv açıqlamasına münasibət bildirib. SİA-nın xəbərinə görə, deputat MDB ilə iş komitəsinin rəhbərliyində olan şəxsin belə bir mövqe nümayiş etdirməsinin qəbul edilməz olduğunu dilə gətirib: “Təbii ki, biz onun fikirlərini Rusiyanın mövqeyi kimi qəbul edə bilmərik. Zatulin iddia edib ki, əgər Dağlıq Qarabağda müharibə başlasa, bu, Azərbaycanın dağılması ilə nəticələnə bilər. Daha sonra iddia edir ki, Azərbaycanın siyasəti sənədlərdə əks olunduğu kimi deyil. O, bir həmkarımızın özünəməxsus fikirlərini əsas götürüb bunu Azərbaycan dövlətinin siyasəti kimi təqdim etməyə çalışıb. Təbii ki, biz bunu qətiyyətlə pisləyirik!” Ç Qənizadə Zatulinin ermənilərə bağlı olmasına diqqət yetirib: “Zatulin qondarma Dağlıq Qarabağda keçirilən “parlament seçkiləri”ndə iştirak edib və həmin şəxs Azərbaycan Xarici İşlər Nazirliyinin arzuolunmaz şəxslər siyahısına daxil edilib. Biz daha böyük siyasi məsələlərdə olduqca ehtiyatlı olmalıyıq”.

## Azərbaycan-Rusiya əlaqələri strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir

Azərbaycan ilə Rusiya arasında əlaqələr strateji tərəfdaşlıq müstəvisində mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında hərtərəfli şəkildə uğurla inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında sentyabr ayında Soçidə və Bakıda iki dəfə görüşün keçirilməsi bunun növbəti bariz nümunəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev vurğulayıb ki, dövlət başçılarının etimada və dostluğa əsaslanan səmimi dialoqu və müntəzəm görüşləri tərəfdaşlıq əlaqələrinin hərtərəfli inkişafında xüsusi çəkiyə və əhəmiyyətə malikdir.

“Ölkələrimiz arasında etimadın və qarşılıqlı faydalı əməkdaşlığın yüksək səviyyəsinin göstəricisidir ki, ikitərəfli əlaqələr regionlararası əməkdaşlıq formatında da uğurla inkişaf etdirilir. Dövlət başçılarının açılışını etdikləri və nitq söylədikləri IX Azərbaycan-Rusiya Regionlararası Forumu əməkdaşlığın daha da inkişafı baxımdan yeni perspektivlər və imkanlar vəd edir. Həmçinin ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinə əsaslanan əməkdaşlıq çoxtərəfli müstəvilərdə də davam etdirilir”, - deyə Prezident Administrasiyasının rəsmisi qeyd edib.

## Stefaniya Giannini: Azərbaycan UNESCO-da fəal ölkələrdən biridir



Parisdə Bakı şəhərinin “Ekspo 2025” Ümumdünya Sərgisinə namizədliyinə dair simpoziumda iştirak edən təhsil naziri Ceyhun Bayramov UNESCO baş direktorunun təhsil məsələləri üzrə yeni təyin olunmuş müavini Stefaniya Giannini ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ceyhun Bayramov Azərbaycanın bu təşkilatla əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb. Nazir ölkəmizdə təhsil sahəsində aparılan islahatlar haqqında ətraflı məlumat verib və bu sahədə əməkdaşlığın əhəmiyyətinə toxunub. Diqqətə çatdırıb ki, Azərbaycanda təhsil üzrə Dövlət Proqramı və Milli Strategiya qəbul edilib. Ceyhun Bayramov, həmçinin erkən yaş təhsili və texniki peşə təhsilində aparılan islahatlardan və qəbul edilən hüquqi sənədlərdən söz açıb.

Tərəflər müvafiq sahələrdə əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparıb, əməkdaşlığın perspektivlərini müzakirə ediblər. Stefaniya Giannini Azərbaycanın UNESCO-da fəallığını vurğulayaraq, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin təqdirəlayiq olduğunu söyləyib. Azərbaycana səfərə dəvət olunan Stefaniya Giannini bunu məmnuniyyətlə qəbul edib.

## “Azərbaycanın “Ekspo-2025” sərgisinə namizəd kimi böyük potensialı var”



Bakının “Ekspo 2025” Ümumdünya Sərgisi üçün təklif etdiyi “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusu çox önəmlidir. Bunun əhəmiyyətini hər kəs yaxşı başa düşür. İnsan kapitalı, daha yaxşı gələcəyin təmin edilməsinin vacibliyi hər birimizə məlumdur. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Parisdə Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə namizədliyinə həsr olunan simpoziumda iştirak edən Beynəlxalq Sərgilər Bürosunun baş katibi Visente Lossertales söyləyib.

Baş katib deyib ki, “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusu BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə, Beynəlxalq Sərgilər Bürosunun missiyasına da tam uyğundur. “Bu, müasir dövrümüzün əsas mövzusudur. Dünyada məşğulluğun nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini bilirik. İnsan kapitalına sərmayə yatırmaqla biz daha çox nailiyyət əldə edə bilərik. Bununla da hər bir insan üçün yüksək həyat şəraiti təmin olunar”, - deyə Visente Lossertales qeyd edib.

Baş katib bildirib ki, Azərbaycanın “Ekspo-2025” sərgisinə namizəd kimi böyük potensialı var. Azərbaycan beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini artıq sübut edib. Xalqın və hökumətin bu namizədliyə göstərdiyi birgə dəstək də çox önəmlidir.

# Suraxanıda Beynəlxalq Müəllimlər Günü qeyd edilib

***Suraxanı rayonunda Beynəlxalq Müəllimlər Günü münasibəti ilə geniş tədbir keçirilib. Rayon ərazisində yerləşən təhsil müəssisələrində çalışan təhsil işçilərinin bir qrupunun qatıldığı tədbirdə ali məktəblərə qəbul imtahanında yüksək nəticə göstərən rayon məzunları da iştirak ediblər.***

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin Heydər Əliyev Parkında ucaldılan abidəsini ziyarət edərək, önünə tər güllər düzüblər. Suraxanı rayonu Heydər Əliyev Mərkəzi ilə tanışlığından sonra Elektron Lektoriya zalında tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov bildirib ki, müəllimlik dünyada ən çətin, eyni zamanda, ən şərəfli və ən gözəl peşədir: “Əsası Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhsil strategiyası bu gün Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilib. Son 15 ildə milli təhsil sisteminin məzmununda əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdir. Müasir dövrün tələblərinə cavab verən fəal maarifçilik kursu həyata keçirilir. Mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sistemi müasirləşdirilir.”



İ.Abbasov vurğulayıb ki, yeni dərs ili ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bir neçə təhsil ocağının binasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar, müəllim və şagird kollektivləri ilə görüşərək, tövsiyələrini veriblər: “2018-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1966 nəfər 11-ci sinif şagirdi bitirib. Məzunlarının 94 nəfəri məktəbi fərqlənmə attestatı ilə, 4 nəfəri isə qızıl medalla bitirib.

Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında ikinci ildir ki, rayonun bir məzunu ən yüksək nəticəni göstərir. Keçən il, ilk dəfə olaraq, 278 nömrəli tam orta məktəbin məzunu Pərvin Əhmədova ən yüksək nəticə göstərərək, 700 bal toplamışdı. Bu il isə 89 nömrəli tam orta məktəbin məzunu Həsənova Şayxanım Aydın qızı 700 bal toplamışdır. 3 məzun Prezident təqaüdçüsü adına layiq görülmüşdür. Onların 3-ü də 89 nömrəli tam orta məktəbin məzunudur. Ali məktəbə qəbul üçün sənəd verən 281, 282, 285 318 nömrəli tam orta məktəblərin və Xarici Dillər Təmayüllü Gimnaziyanın məzunlarının 90 faizdən yuxarısı müsbət nəticə göstərmişdir.”

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Barxudar Barxudarov, Milli Məclisin deputatları Sevinc Fətəliyeva, Ağacan Abiyev, Fərəc Quliyev, FHN-in Akademiyasının rəisi Pənah Süleymanov, 89 nömrəli tam orta məktəbin direktoru Dadaş Babazadə, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında yüksək bal toplayan Prezident təqaüdçüləri Şayxanım Həsənova, Əbdülağa Dadaşov, Aytac Məmmədova, valideyn Elxan Sədirov təhsilə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı Cənab İlham Əliyevə öz dərin təşəkkürlərini bildiriblər.

Tədbirdə bir qrup təhsil müəssisəsinin kollektivi və təhsil işçiləri, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən məzunlar rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilib, onlara qiymətli hədiyyələr verilib. Eyni zamanda, bir qrup təhsil işçisinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Suraxanı rayon Komitəsinin Fəxri Fərmanı və qiymətli hədiyyələri təqdim olundu.

Sonda tədbir şagirdlərin ifasında bədii hissə ilə davam etdirilib.

**ZÜMRÜD**

## “Xaricdə təhsil üzrə istiqamətlər, ixtisaslar və ali təhsil müəssisələrinin siyahısı gələn il açıqlanacaq”



***Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən xaricdə təhsil üzrə istiqamətlər, ixtisaslar və ali təhsil müəssisələrinin siyahısı güman edirik ki, gələn il aprel-may aylarından etibarən ictimaiyyətə elan olunacaq. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov oktyabrın 4-də jurnalistlərə müsahibəsində deyib.***

Gənclər Fondunun qarşısında bir sıra yeni vəzifələrin qoyulduğunu vurğulayan F.Cəfərov deyib ki, onlardan biri də gənclərin ölkənin ehtiyaclarını nəzərə almaqla, xarici ölkələrin ali təhsil müəssisələrində təhsil almalarının maliyyələşdirilməsidir: “Bununla bağlı bu gün Fondun Müşahidə Şurası tərəfindən müraciət, eyni zamanda, müraciətin qiymətləndirilməsi və ona baxılması qaydaları təsdiqlənəcək. Bu, Fond üçün yeni vəzifədir. Yəqin ki, təhsil pillələrində fərqlilik olacaq və tələbələrin müəyyən təhsil pillələri üzrə təhsil almaları maliyyələşdiriləcək. İxtisas dərəcələri də sırf ölkənin mütəxəssis ehtiyacına uyğun olaraq müəyyənləşdiriləcək”. İcraçı direktor qeyd edib ki, kreditlər üç kateqoriyada nəzərdə tutulub: kiçik, orta, böyük məbləğdə. Bu imkanlardan 18-29 yaşlı Azərbaycan vətəndaşları yararlana biləcəklər. Hazırda Fond tərəfindən müvəkkil kredit təşkilatının seçilməsi istiqamətində danışıqlar aparılır. Gələn ildən başlayaraq, Fond tərəfindən kreditlərin verilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

“Kiçik məbləğli kreditlər minimum 1000 manatdan başlayacaq. Böyük məbləğli kreditlər isə 50 min manat təşkil edəcək”, - deyən Fərid Cəfərov əlavə edib ki, qarşıda duran vəzifələrdən biri də xüsusi sosial müdafiəyə ehtiyacı olan gənclərin ölkə daxilində təhsil aldığı müddətdə həm təhsil haqqının, həm də onların yataqxana xərclərinin maliyyələşdirilməsi ilə bağlıdır. “Müşahidə Şurasının bugünkü iclasında bununla bağlı müraciət qaydalarının təsdiqlənməsi də gözlənilir. Xüsusi sosial müdafiəyə ehtiyacı olan gənclər dedikdə, ilk növbədə, valideyn himayəsindən məhrum olanlar, əlil gənclər, valideyninin birinin müəyyən əlil kateqoriyasına mənsub, eyni zamanda, qaçqın, məcburi köçkün, şəhid və ya aztəminatlı ailələrdən olan gənclər nəzərdə tutulur”.

## “Moskva Qarabağ münaqişəsinin nizamlanmasında bütün müsbət meyilləri alqışlayır”



Moskva Qarabağ münaqişəsinin nizamlanması prosesində nəzərə çarpan bütün müsbət meyilləri alqışlayır. AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirdiyi brifinqdə söyləyib.

M.Zaxarova deyib: “Biz nəzərəçarpan bütün müsbət meyilləri alqışlayırıq. İndi bu meyilləri inkişaf etdirmək və ehtiyatsız ritorika ilə işə ziyan vurmamaq vacibdir, təəssüf ki, son zamanlar belə ritorika da baş verir. Biz öz tərəfimizdən bu müsbət meyillərə bütün lazımlı köməyi göstərəcəyik”.

# Yevlaxda Müəllim Günü təntənəli qeyd olunub



Yevlax rayon Mədəniyyət Mərkəzinin filialı olan Yaradıcılıq Evində 5 oktyabr Beynəlxalq Müəllimlər Gününə həsr edilmiş təntənəli tədbir keçirilib. Tədbiri Yevlax şəhər Mədəniyyət Mərkəzinin direktoru Eldəniz Mustafayev açaraq 5 Oktyabr Müəllimlər Günü münasibəti ilə müəllim kollektivini təbrik etdi. Müəllim adının məsulliyyəti müəllim peşəsinin müqəddəsliyindən geniş söz açıb.

Sonra YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev çıxış edərək, müəllimlərin hər bir insanın həyatında özünəməxsus rolundan danışaraq qeyd etdi ki, bu gün tək məktəblərdə dərs deyən müəllimlərin bayramı deyil, insanların həyatında iş prosesində bəzən elə şəxslər olur ki, ona bir həyat dərsi iş təcrübəsi keçir: “Bunların hamısı öyrədən müəllimlik edən şəxslərdir. Müəllim sözü öyrədən deməkdir. Ona görə də, bu gün sizləri bizləri öyrədən hər kəsin bayramıdır. Bizim borcumuz müəllimlərin hörmətini saxlayıb onların daim xidmətmətində durmaqdır. Biz bu gün nə qazanmışıqsa hamısında müəllimlərimizin payı var. Sevinirik ki, ölkə Prezidentimiz İlham Əliyev bu gün Azərbaycan müəlliminə çox böyük hörmət qoyaraq, onları daim diqqətdə saxlayır”.

Tədbirdə əməkdar müəllim Yevlax Ziyalılar Cəmiyyətinin sədri Qiyas Quliyev çıxış edərək bildirib ki, bu gün Azərbaycan müəlliminə verilən qiymətə görə, məhz Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq olunmalıdır.

Yevlax şəhər 5 saylı tam orta məktəbin müəllimi əməkdar müəllim Əmraslan Bəşirov, 1 saylı musiqi məktəbinin müəllimləri Gültəkin Əzizova, Rəşid İsmayılov və başqaları çıxış edərək öz sevinclərini tədbir iştirakçıları ilə bölüşüblər. Müəllimləri bayram günü sevindirdiklərinə görə yaradıcılıq evinin drektoru Zöhrə Adıgözəlovaya minnətdarlıq ifadə edilib. Əməkdar müəllimlərə YAP Yevlax rayon təşkilatı tətəfindən qiymətli hədiyyələri təqdim olunub. Tədbir konsert proqrami ilə davam etdirilib.

**Rövşən RƏSULOV**

# Əli Kərimlinin xəyanəti AXCP-də üsyan yaradır...

## *Aydın Əliyev: "Əli Kərimlinin satqınlıq xronologiyası onun nə qədər mənəviyyatsız olduğunu göstərir"*

**AXCP**-də baş verən qarşıdurmalar yenidən partiyadan istefaların ardıcıl xarakter almasına səbəb olub. AXCP MNTK-sının sədri Aydın Əliyevin Ə.Kərimliyə zərbə niyyəti ilə İctimai Nəzarət Komissiyasına daxil olması da bu qəbildəndir. O, bildirib ki, Ə.Kərimli doğrudan da, iblis xislətlidir: "Ə.Kərimli insanlıqdan uzaq olan iblisdir. Bu gün düşərgənin xəyanət simvolu olan AXCP sədri Əli Kərimlinin satqınlıq xronologiyasına nəzər salmaq kifayətdir. Azərbaycanın böyük filosof-şairi Hüseyn Cavidin "İblis"ində iblisin nə olduğunu aydın şəkildə göstərir: "İblis nədir? Cümlə xəyanətlərə bais, ya hər kəsə xain olan insan nədir? İblis!" Bu gün Ə.Kərimli müxalifətdə olduğu illərdə ancaq öz şəxsi ambisiyalarını düşünməkdən başqa bir iş görməyib. Heyif ki, bu partiyadan ki, ona Əli Kərimli sədrlik edir".



A.Əliyev onu da bildirib ki, Ə.Kərimli bu günədək pafoslu çıxışlar edir, əslində isə, o, xarici pulverənlərə kompromat ötürmək uğrunda mübarizə aparır. Onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar. Bunu uzun müddət Ə.Kərimli ilə bir cəbhədə təmsil olunan şəxs kimi bəyan edirəm. AXCP sədri tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna və yoldaşlığına qarşı da xəyanət yolu tutub.

### "Artıq Əli Kərimli erasına son qoymalıyıq"

"Gəncliyin ruhunu istifadə edilməyən bir tarla kimi özbaşına qoysanız, orada gicitkən və qandaldan başqa bir şey tapa bilməzsən"- A.Əliyev onu da deyib ki, partiyada bu günədək onun uğursuz siyasətini görüb, tənqidə başladıqda isə, partiyadaxili işlərdən uzaq tutmağa başlayır.

A.Əliyev onu söyləyib ki, Ə.Kərimli ölkədə demokratiya axtarır, amma partiyasından xəbəri yoxdur: "Öncə, bir get partiyadaxili proseslərə bax, sonra bu cür bəyanatlar səsləndir. Özü biləbilə bizi güclə meydanlara göndərib, sonra da tutdururdu. Zorla "Azadlıq" qəzetinə abunə edirdi, ayda 10 manatımızı alırdılar. Amma bizə konkret demirdilər ki, qəzetə yığırıq. Deyirdilər ki, qəzetimizi dövlət cəriməläyib, ona görə də kömək etmək lazımdır. Digər bir tərəfdən də, indi Əli Kərimlinin ətrafında özü kimi bir neçəsi var ki, bizə satqın deyir. Biz satqın deyilik, biz satqınlara qarşı çıxanlarıq. Özlərini sığortalamaqdan ötəri, min bir yalana əl atanların, ümumiyyətlə siyasət adına, partiya adına danışmağa haqları yoxdur".

### Mənəviyyatsızlıq simvoludur

AXCP sədri Ə.Kərimlinin mənəviyyatsızlıq simvolu olmasını isbat etməyə ehtiyac yoxdur, o zaman müxalifət olaraq, bizi qınayırdınız. Çünki onun Azərbaycana qərəzli mövqedə dayanan, xarici ölkələrin əlində fiqura çevrilməsi, təxribatçı qüvvələrlə birgə çalışmasını təsdiqləyən çoxsaylı faktlar movcuddur. "Siyasi karyerasında", xüsusilə, ermənilərlə işbiriyini təsdiq edən amillər istənilən qədərdir və bu barədə onun əməllərinin sübuta ehtiyacı yoxdur. Dağıdıcılıq, ziyankarlıq və xəyanət missiyasını daim tətbiq edərək, düşərgədə qarşıqlıq yaradan Ə.Kərimlini silahdaşları belə heç vaxt önəmli fiqur kimi qəbul etmirlər. Azərbaycanda "Demokratiyanın İnkişafı Fondu"ndan aldığı pulları mənimsəyərək, başqalarına böhtan atmaqla məşğul olan, "erməni lobbisinin fəxri üzvü, dayısı" adını daşımaqdan utanmayan bu "siyasətçi" həmişə şəxsi maraqlarına görə dövlətçiliyimizə xələl gətirir. Bu, həm də o Əli Kərimlidir ki, ermənilərdən başqa dünyada məşhur olan terrorçu qrup və islami təşkilatlarla da əlaqə yaradaraq, Azərbaycana qarşı böhtan kampaniyasında fərqləndiyi üçün "xidmətləri" də əvəzsiz qalmır.

### Faktlar, sübutlar, dəlillər

Zaman-zaman, xarici ölkələrdəki ağalarına xidmət göstərən, təlimatlar alıb dövlət maraqlarına qarşı çirkin xəyanətkar fəaliyyət yolu tutan AXCP sədri Əli Kərimli ən yaxın tərəfdaşlarından olan "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin "Azərbaycan saatı" adlı verilişində gedən materiallar, eyni zamanda, xəyanətkar ünsürlərlə iş birliyi yaradaraq, bu satqınlığın əvəzində pul yardımı ilə "mükafatlandırılıb". Məhz həmin maliyyə vasitəsilə AXCP sədri Ə.Kərimli Azərbaycanda dəfələrlə çevriliş etmək məqsədilə müxtəlif dağıdıcı təmayüllü təşkilatlar yaradıb, onları çirkin məqsədlər üçün istifadəyə cəhdlər göstərib.

Digər bir fakt: Nardaranda baş verən hadisələr zamanı Ə.Kərimli sosial şəbəkədə insanları "qiyama" səsləyib, bununla, ölkədə vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərib. İyrənc məqsədinə çatmaq üçün simasını itirmiş, milli mənafeləri düşünməyən, hər cür alçaqlığa qol qoyan AXCP sədri hər zaman istənilən qaranlıq dairələrlə müttəfiqliyə hazır olan antimilli qüvvəyə çevrildiyini nümayiş etdirib.

Cəmiyyət dəfələrlə bu cür qüvvələrin qarşısının alınması tələbini irəli sürür. Ona görə də, Azərbaycan iqtidarı dövlətin və millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimlinin xəmiri belə yoğrulub. Ona və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürülməli, cəmiyyətdən təcrid edilməlidirlər.

***Rəfiqə HÜSEYNOVA***

# "Bəlkə xalq Şarmazanovu sevdiyini və onun baş nazir olmasını istəyib?"

## *Yaxud vitse-spiker Paşinyanı niyə ələ saldı?*



"Siyasi təkəbbür və abırsızlıq Nikol Paşinyandan min dəfələrlə güclü xadimləri məhv edib". "Aysor.am"-a istinadən bu barədə Ermənistan parlamentinin vitse-spikeri Eduard Şarmazanov baş nazir Nikol Paşinyanın "ölkədəki eyforiya bundan sonra hələ 15 il də davam edəcək" ifadələrinə münasibətini açıqlayarkən deyib.

Paşinyanın özündənrazı şəkildə növbədənkənar parlament seçkilərini, məhz dekabr ayında keçirəcəyi iddiasında olmasının doğru seçim olmadığını deyən Şarmazanova görə, hətta eyforiya 15 il davam edərsə belə, bu, o demək deyil ki, seçkilər də 15 il keçirilməyəcək: "Biz görmüşük ki, Bonapartı bonapartizm yıxıb, görmüşük ki, Levon-Ter Petrosyan 90 faiz səs toplamışdı. O da vaxtilə ondan güclü olan xadimləri məhv etdi".

Beləliklə, Paşinyana eyham vuran Şarmazanov 1991-ci ildə Levon-Ter Petrosyanın nə qədər səs topladığını xatırladaraq, onu da bildirib ki, artıq 1992-ci ilin sonlarında Yerevana tələbə kimi getdiyi zaman onun haqqında (Ter-Petrosyanı nəzərdə tutur-red.) insanların müsbət rəy verdiklərini görmədiyini deyib.

### İddia: "Paşinyan may ayında baş nazir olmalı deyil, dərhal növbədənkənar seçkilərə getməli idi"

Ermənistan parlamentinin vitse-spikeri bildirib ki, Paşinyanın parlamentdə səs çoxluğu olmaması üzündən effektli işin aparıla bilməməsi iddiası ilə razı olmadığını deyib: "Əgər bu, belədirsə, Paşinyan hələ may ayında baş nazir olmalı deyil, dərhal növbədənkənar seçkilərə getməli idi".

"Ehtimal etmək olar ki, həmin vaxt onun resursları yox idi və dövlət resurslarını götürmək lazım idi - polisi, Milli Təhlükəsizlik Xidmətini, dövlət mühafizəsini, dövlət nəzarətini, nazirlikləri və s.", deyə bildirən Şarmazanov bu resursların seçkilər üçün istifadə ediləcəyini bildirib: "Məhz bunu ehtimal etmək olar, mən ayrı cür əsaslandırma görmürəm. Əgər bəyan edirsənsə ki, heç nəyi dəyişmək lazım deyil, biz seçkilərə dekabr ayında gedirik, onda xalq bunu nəyə görə may ayında tələb etmirdi?"

E.Şarmazanov Paşinyanın iddiasına istehzalı münasibət bildirərək belə bir sual da ünvanlayıb: "Bəlkə xalq may ayında Şarmazanovu sevdiyini və onun baş nazir olması, vacibliyini tələb edib?"

Beləliklə, Nikol Paşinyanın iddiası, artıq siyasi dairələrdə gülüş obyektinə çevrilib və ölkədəki siyasi böhranın getgedə xaosa da sürüklənəcəyini proqnozlaşdırmaq olar. Hələlik isə, söz savaşları aparılır...

***Rövşən NURƏDDİNOĞLU***

# "Frankofoniya Ermənistan dövlətinin korporativ maraqlarına xidmət edir"

"Ermənistanda keçirilməsi nəzərdə tutulan Frankofoniya sammiti işğalçı ölkənin illərdən bəri dünya siyasi, politoloji fikrinə salmaq istədiyi amma bu istiqamətdə hər hansı bir önəmli nəticəyə malik olmadığı tədbirdir". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib. Baş redaktorun sözlərinə görə, əslində Ermənistan dünyaya Frankofoniyanı guya çox qlobalmiqyaslı bir tədbir olduğunu çatdırmağa çalışır: "Amma mahiyyətində isə Frankofoniya Ermənistan və onun maraqlarını dünyada müdafiə edən məhdud sayda qüvvələrdən ibarət korporativ təşkilatdan və korporativ bir platformadan o yana gedə bilmir. Yəni Frankofoniya Ermənista-



nın ideyası altında yaranan bir təşkilat olaraq yalnız işğalçı ölkəyə aid olan və Ermənistan dövlətinə uyğun platformadan və pozisiyadan çıxış edir.

Dünyanın əksər politoloqlarının fikrincə, Frankofoniya dünyada qlobal problemlərin həllinə hər hansı töhfə verə bilməyən bir tədbirdir. Məsələn, Bakıdakı tədbirlərin müzakirələr nəticəsində verdiyi ideyaların təsiri və Ermənistanda Frankofoniyanın verdiyi ideyaların təsiri arasında yerlə-göy arasında fərq var. Hətta bunlar bir-biri ilə müqayisə oluna bilməzlər. Frankofoniya tədbirləri ancaq Ermənistan dövlətinin korporativ maraqlarına xidmət edən bir platformadır. İllərdən bəri ora məhdud sayda təmsilçilər gəlir. Yalnız Ermənistan lobbisinin təsiri altında olan qüvvələr və dünya dövlətlərindən müəyyən dairələr orada təmsil olunurlar. Əlbəttə ki, Ermənistanın genişmiqyaslı platformalardan ibarət tədbir keçirməyə gücü yoxdur. Çünki ölkə böhran içərisindədir".

# Kino tariximizdə ilk dəfə retro kinotexnika sərgisi açılacaq

Oktyabrın 9-da Dövlət Film Fondunda "Keçmişdən səslər" retro kinotexnika sərgisi açılacaq. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasından AZƏRTAC-a bildirilib ki, sərgidə kinostudiyanın istehsalat sexlərində və Dövlət Film Fondunun muzey ekspozisiyasında qorunub saxlanan XX əsrin operator texnikası, səsyazma avadanlığı, işıqlandırma cihazlarının nümunələri göstəriləcək.



Qeyd edək ki, belə zəngin formatda retro kino sərgisi kino tariximizdə ilk dəfə keçiriləcək. Sərgilənən 100-dən artıq texnoloji nümunənin demək olar ki, hamısı bərpa edilib və işlək vəziyyətdədir. Sərgidə 60-70-ci illərin kino çəkilişi meydançasının atmosferi yaradılacaq, "Motor!" komandası eşidiləcək. Dünyadan getmiş böyük kino ustalarımızın səsləri iştirakçıları salamlayacaq.

# Satqın mühacirlər Azərbaycana ekstradisiya olunacaqlar

## *“Avropa dövlətlərinə sığınan milli satqınları ələ alaraq onlardan söyüş makinası kimi istifadə edirlər”*

***Son vaxtlar xarici maraqlı dairələrdən maddi və mənəvi dəstək alan “sapı özümüzdən olan baltalar” ölkəmiz haqqında şər və böhtanlarını daha qərəzli formada genişləndiriblər. Bu da onların xarici ağalarından xüsusi göstəriş aldıqlarını göstərir. Bu, həm də, onu təsdiqləyir ki, xarici bossları onlardan narazıdırlar. Yarıtmaz mövqe sərgiləyən Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Qurban Məmmədov və digərləri ağına-bozuna baxmadan şər-şəbədələrini genişləndirməklə öhdəliklərini yerinə yetirmək üçün tələsdiklərini nümayiş etdirirlər. Söhbət etdiyimiz müsahiblərimiz də Avropadakı mühacirlərin xüsusi agentura şəbəkəsinin təlimatı əsasında fəaliyyətlərini qurduqlarını bildirdilər.***



### “Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova: “Azərbaycana qarşı aparılan bu kampaniya sifarişdir”

- Son aylarda Azərbaycan beynəlxalq səviyyədə bir çox mühüm layihələrə imza atıb. Qarşılıqlı rəsmi səfərlər, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, Rusiya ilə imzalanmış sazişlər ölkəmizin beynəlxalq aləmdə mövqelərini gücləndirən addımların, sadəcə, bir hissəsidir. Təbii ki, belə vəziyyət Azərbaycanı istəməyən qüvvələrin maraqları ilə üst-üstə düşmür. Onlar bütün vasitələrdən istifadə edərək, Azərbaycanın uğurlarına yenidən kölgə salmağa çalışırlar. Ölkəmizin beynəlxalq imicini zədələmək üçün hansısa QHT-ləri ələ alaraq, müxtəlif reytinqlər təşkil edir, Azərbaycanın adını ən aşağı sıralarda göstərirlər. Bu kampaniyanın əsas hərəkətverici qüvvələrindən biri də xaricdə yaşayan və şəxsi mənafeləri naminə dövlətinin və xalqının milli maraqlarını heçə sayan “azərbaycanlılar”dır. Son zamanlar məlum simaların bu istiqamətdə yenidən fəallaşdığının şahidiyik. Azərbaycan nə zaman beynəlxalq səviyyədə adından söz eşitdirməyə başlasa, həmin şəxslər dərhal fəaliyyətə keçirlər. Prosesin mahiyyətinə nəzər salsaq, əminliklə deyə bilərik ki, Azərbaycana qarşı aparılan və əsas daşıyıcı qüvvənin, məhz “soydaşlarımız” olduğu bu kampaniya sifarişlidir. Lakin artıq təcrübə də göstərir ki, belə qarayaxma kampaniyalarının heç bir tutarlı təsiri yoxdur. Cəmiyyətimiz, sadə vətəndaşlar bu insanların söylədiklərinin kimlərin sifarişi olduğunu çox yaxşı başa düşür. Əminəm ki, bu cəhdlər də uğursuz olacaq.

### Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: “Tarix hər zaman xainə layiq olduğu yeri göstərib”

- Son bir ildə Azərbaycana, onun siyasi rəhbərliyinə və bütövlükdə, dövlətçiliyimizə qarşı söyüş terroru həyata keçirən qüvvələrin iyrənc hərəkətləri hər bir azərbaycanlıda, dövlət, xalq və millət təəssübünü çəkən hər bir insanda ikrah hissi doğurmaya bilməzdi və belə də oldu. Ölkəmizin uğurlarından əndişələnən, dövlətimizin qüdrətlənməsindən, iqtisadi-siyasi çəkisinin yüksəlməsindən narahat olan qüvvələr öz məkrli niyyətlərini, planlarını həyata keçirmək üçün Azərbaycanda bütün imkan-



larının iflasa uğradığını görəndə, bu cür murdar mübarizəyə əl atdılar. Bu qüvvələrin arxasında həm erməni lobbisi, həm ölkəmizin karbohidrogen resurslarının istismarından pay ala bilməyən dövlətlər, həm də insan hüquq və azadlıqlarının müdafiəsi altında fəaliyyət göstərən müxtəlif reket beynəlxalq təşkilatları dayanır. Vaxtilə Azərbaycandan qaçıb Avropa dövlətlərinə sığınan milli satqınları ələ alaraq, onları söyüş makinası kimi istifadə etmək, onların vasitəsi ilə ittihamlar irəli sürmək, söyüşlər söydürmək bu planın bir hissəsidir. Sonuncu prezident seçkiləri öncəsi fəallaşan bu cür antimilli yaramazlar, bütövlükdə, xalqın narazılığı ilə qarşılaşdılar. Çünki azərbaycanlı mentalitetində təhqir azərbaycanlı leksikonunda söyüş ifadə etmək hər zaman rədd edilib və bu, həmişə belə olacaqdır. Avropanın bahalı şəhərlərində heç bir işlə məşğul olmayan, konkret əmək haqqı almayan və bütün bunların əksinə, bahalı həyat tərzi keçirən bu adamları himayə edən, maliyyə vəsaiti ilə təmin edən, yaşayışlarını qarşılayan və onlardan alət kimi istifadə edən qüvvələrin tapşırığı ilə hərəkət edən rəzillərin “fəaliyyətində” son günlərdə yenidən aktivlik müşahidə edilməkdədir. Bu, xüsusilə, beynəlxalq müstəvidə mövqelərimizin daha da gücləndiyi, iqtisadi imkanlarımızın genişləndiyi, Ermənistanda isə siyasi böhranın və iqtisadi tənəzzülün dərinləşdiyi bir dövrdə baş verir. Bu, bir daha onu sübut edir ki, bu aktivliyin artmasında, bilavasitə erməni lobbisinin göstərişi var. Əminəm ki, ölkəsinə qarşı xain mövqeyi tutmuş, əməllərində konkret cinayət əməli olan bu satqınlar, Azərbaycana ekstradisiya olunaraq, dövlətimizin qanunları ilə ən layiqli cəzalarını alacaqlar. Çünki tarix hər zaman dövlətinə, xalqına və vətəninə qarşı düşmən mövqeyi tutmuş hər bir xainə gec-tez layiq olduğu yeri göstərmişdir.

***GÜLYANƏ***

# Ağcabədidə Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib



***Dünən YAP Ağcabədi rayon təşkilatının qadınlar şurasının və Gənclər üçün Təhsil Mərkəzinin təşkilatçılığı ilə “Qarabağ” Muğam Mərkəzində Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov, Ağcabədi rayon Ağsaqqallar Şurasının sədri Əlizadə Nəcəfov, Ağcabədi Pedaqoji Kollecinin tələbəsi Röyalə Hümbətova, Ağcabədi rayon Təhsil Şöbəsinin inspektoru İbrahim Vəliyev, “N” saylı hərbi hissənin əsgəri Fərhad Əhmədli, Ağcabədi Pedaqoji Kollecin YAP ərazi ilk partiya təşkilatının sədri Rövşən Bayramov və digərləri çıxış edərək, müəllimləri bayram münasibətilə təbrik ediblər.***

Çıxışlarda vurğulanıb ki, hər il 5 oktyabrda 100-dən çox ölkədə Beynəlxalq Müəllimlər Günü qeyd edilir. Bu, bütün müəllimlərin və təhsil sistemi işçilərinin peşə bayramıdır. Ölkəmizdə təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzindədir. “Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram”, - deyən Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin və rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.

Ulu Öndərin siyasi varisi Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev də respublikamızda təhsilin inkişafına böyük önəm verib, yeni məktəblərin tikintisi, təmiri, elmi-texniki tərəqqinin son nailiyyətlərinin təhsildə tətbiq olunmasını, təhsilin müasir dövrün tələblərinə uyğun olaraq, yenilənməsi üçün çox böyük işlər görür: “Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın da “Yeniləşən Azərbaycana Yeni məktəb” layihəsi çərçivəsində böyük uğurlar əldə edilmişdir. Ölkə rəhbərliyinin təhsilə qayğısı Ağcabədi rayonunda da öz əksini tapmışdır.

Tədbirdə pedaqoji sahədə səmərəli fəaliyyətinə və rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə, bir qrup müəllim, o cümlədən, uzun müddət müəllim işləmiş, hazırda təqaüddə olan müəllimlərə YAP Ağcabədi rayon təşkilatının Fəxri Fərmanları, YAP sıralarına yeni qəbul edilmiş gənc müəllimlərə vəsiqələr təqdim edilib.

Tədbir bədii hissə ilə başa çatıb.

***ZÜMRÜD***

# Sərhədçilərin sayıqlığı nəticəsində külli miqdarda narkotik ələ keçirilib



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd mühafizəsinin etibarlı təminatı sahəsində tədbirlər davam etdirilir. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən SİA-ya verilən məlumata görə, 2018-ci ilin 30 sentyabr tarixində DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılmasına nail olunmuşdur.

Həmin tarixdə saat 03:10 radələrində alınmış əməliyyat məlumatı əsasında DSX-nin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində, Yardımlı-Arus kəndi istiqamətində əməliyyat-axta-rış tədbiri həyata keçirilmiş, “VAZ-2107” markalı 90-BB-979 və “Mer-cedes” markalı 90-BK-471 dövlət qeydiyyat nömrə nişanlı avtomo-billər baxış keçirilməsi üçün saxlanılmışdır.

Saxlama zamanı “Mercedes” markalı avtomobil tabesizlik göstərmiş və Masallı rayon istiqamətində hərəkət edərək 1 kq narkotik maddəni əraziyə atmışdır. Qarşılıqlı əlaqədə olan Masallı rayonu polis şöbəsinin əməkdaşları tərəfindən həmin avtomobil saxlanılmış, avtomobildə olan 1 nəfər şəxs polis əməkdaşlarının qanuni tələblərinə məhəl qoymayaraq meşəlik əraziyə qaçmağa nail olmuşdur.

Əraziyə və avtomobillərə baxış zamanı 8600 qram “heroin” və “tiryək” bənzər narkotik maddə aşkar olunmuşdur. Saxlanılmış və-təndaşların şəxsiyyətləri dəqiqləşdirilmiş, onların Yardımlı rayon sa-kinləri 1974-cü il təvəllüdlü Şirbəyev Habil Yaşılxan oğlu, 1983-cü il təvəllüdlü Qurbanov Zaur Camalxan oğlu və Salyan rayon sakini 1993-cü il təvəllüdlü Ağayev Malik İlyas oğlu olmaları müəyyən edilmişdir. Hadisə yerindən qaçmış 4-cü şəxsin axtarışı üzrə müvafiq tədbirlər həyata keçirilir. Hadisə ilə əlaqədar DSX-nin istintaq və təhqiqat idarəsi tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmışdır, zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Erməni qulbeçələri

**RƏFİQƏ**

***Yadımda deyil, ancaq o yadımdadır ki, köşə yazımda demişdim ki, "nə zamansa, bəlkə də yaxın vaxtlarda eşidəcəyik ki, Əli Kərimli ilə Cəmil Həsənli düşmən olublar". Bu gün o vaxt deyilənlər təsdiqini tapdı. O vaxt da, bu gün də deyirəm: mənəviyyatını, əqidəsini, olmayan vicdanını satan və satılan kəsdən, şeytandır, iblisdir, bilmirəm, ancaq onu bilirəm ki, xəyanətkardan bunu gözləmək təəccüblü deyil. Əlbəttə ki, pula görə! Ancaq bir məsələni də vurğulayaq ki, onların hər ikisinin birbirinə istər o vaxt, istər bu gün düşmən kəsilmələri nə xalqa, nə ictimai rəyə heç bir istisi-soyuğu olmayıb və olmayacaq da. Çünki bunların xalq qarşısında bir qram da olsa belə, hörmət-izzətləri yoxdur. Bu, təbii ki, aksiomadır.***

Ancaq nəticədə nə göründü? Sözsüz ki, Ə.Kərimli "Milli Şura"nın, C.Həsənli də AXCP-nin maskasını cırıb ayaqlar altına atdığını gördük. Çünki bu pərdə bu gün götürülməyib, bu pərdə çoxdan götürülüb. Özü də pula görə. Pula görə satılırlar, satırlar -əqidələrini, mənliklərini...

Digər səbəb isə, son vaxtlar C.Həsənlinin ABŞ-a etdiyi məlum səfərləri ilə yanaşı, həm də bu günlərdə "REAL"-ın sədri İlqar Məmmədova dəstək olmasıdır. Bu "adam" Amerikaya hər görüşü zamanı orada görüşdüyü insanların hər birinə Azərbaycan haqqında elə ifadələr səsləndirir ki, qarşısında dayananlar ilk öncə, onu erməni bilirlər. Sonradan bəlli olur ki, C.Həsənli erməni deyil, erməni aşiqi olan azərbaycanlıymış! Ona görə də, heç C.Həsənli sən heç "süddən çıxmış ağ qaşıq deyilsən!" Bax, indi C.Həsənli ilə Ə.Kərimlinin bir-birinə qurşaqdan aşağı dedikləri "tərifləri" təəccüb də doğurmur. Ə.Kərimlini ən çox narahat edən isə, ABŞ səfəri zamanı Cəmilə pul verilməsi ilə bağlı olub. C.Həsənli də aldığı erməni pullarından Ə.Kərimliyə bir sent belə vermək fikrində deyil. Bir də ağılsız-zad deyil ha!

Səbəblər çoxdur, ancaq ən əsas səbəbi demək istərdim: C.Həsənli ilə Ə.Kərimlinin günü-gündən olan-qalan nüfuzlarının əriməsidir. Artıq hər kəs bilir ki, onların agent olmaları ifşa edilib. Hər ikisi ABŞ-ın, Fransanın, İngiltərənin, Almaniyanın maraqlarını təmin edən erməni lobbisi üçün çalışırlar. Bir sözlə, pullarını alırlar, işlərin görürlər.

Hələlik, C.Həsənli və Ə.Kərimli özlərini hər dəfəsində "yandırırlar", agent, xəfiyyə olduqlarını gizlətməkdə aciz-lik çəkirlər.

Bu yerdə nə desək, qəbul olunmalıdır. Daha doğrusu, C.Həsənli kimi şəxsiyyətsizlər üçün müqəddəslik deyilən heç bir anlam mövcud deyil. Pul qarşısında vətənini, millətini, hətta doğmalarını belə qurban verən bu fərdlər sabah yenidən bir-birlərinə düşmən-zad kəsilsələr, heç də təəccüblənməyin!

## Bakıda gənc rəssamların qrup sərgisi açılacaq




Noyabrın 20-də "Art Tover" rəsm qalereyasında "Arts Council Azerbaijan" qeyri-hökumət təşkilatının təşəbbüsü ilə "Start" layihəsi çərçivəsində gənc və həvəskar rəssamların sərgisi açılacaq. AZƏRTAC xəbər verir ki, sərgi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Gənclər Şəbəkəsinin təşkilatçılığı ilə reallaşacaq. Sərgidə 10-dan çox rəssamın müxtəlif mövzulu 40-dək sənət əsəri nümayiş olunacaq. Layihənin məqsədi incəsənətin təbliğində gənclərin rolunu artırmaq, onların bu işin təbliğatçısı qismində çıxış etmələrinə dəstək olmaqdır.

# Ermənistanda siyasi böhran dərinləşdi

## Paşinyan istefa verərsə, yenidən baş nazir seçilməyə bilər

***Ermənistanda siyasi böhran tam sürətlə davam edir. Nikol Paşinyanın ən geci, növbədənkənar parlament seçkiləri ilə bağlı irəli sürdüyü tələbləri bu böhranın daha da dərinləşməsinə səbəb olmaqdadır. Paşinyanın ən geci dekabr ayının sonlarına qədər keçirilməsini istədiyi növbədənkənar parlament seçkiləri ölkənin qanunverici orqanının digər təmsilçiləri tərəfindən qəbul olunmamaqdadır. Artıq Ermənistan parlamentində "Ermənistanın Milli Məclisinin reqlamenti"nə edilən dəyişikliklərlə bağlı qanun layihəsi qəbul olunub və həmin layihə imzalaması üçün prezident Armen Sarkisyana göndərib. Baş nazir Nikol Paşinyan isə Armen Sarkisyana müraciət edərək, həmin qanunu imzalamamağa çağırıb.***





Qeyd edək ki, Nikol Paşinyan baş nazir postunu ələ keçirərkən, seçkilərin gələn ilin aprel, yaxud may aylarında keçiriləcəyini bəyan etmişdi. Lakin onun baş nazirliyi dövründə ölkədə mövcud olan problemlərin öhdəsindən gələ bilməməsi, eləcə də, reytinqinin aşağı düşməsi həmin bəyanatını geri götürməyə vadar edib. Məhz bu baxımdan, mövcud reytinqini də itirməmək üçün, o, növbədənkənar parlament seçkilərini elə bu ilin sonlarına yaxın keçirilməsi tələbi ilə çıxış edir. Ancaq məsələ həm də ondadır ki, bu gün parlamentdə təmsil olunan köhnə sistem komandası, daha dəqiq desək, Serj Sarkisyanın prezidentliyi dövründə seçilmiş deputatlar - Respublika, "Çiçəklənən Ermənistan", Daşnaksyutun və s. partiyalarının nümayəndələri, o cümlədən, "Tsarukyan bloku" Nikol Paşinyanın tələblərinə qarşıdırlar. Belə ki, yeni parlament tərkibinin formalaşdırılması üçün qanunverici orqan buraxılarsa, Paşinyan istefa verib, yenidən baş nazirlik postuna namizədliyini irəli sürərsə, köhnə sistemdən olanların yenidən deputat seçilməsi məsələsi birdəfəlik qapanacaq.



### Baş nazir: "Mən istefa verəcəm və heç kim baş nazir postuna namizədliyini irəli sürməyəcək"

Ümumiyyətlə, Paşinyanın yenidən baş nazir seçilməsi bir sıra deputatları və oliqarxiya sistemi üçün arzuolunmaz məsələdir. Bu baxımdan, onlar seçkilər vasitəsilə baş nazir postuna öz namizədlərini irəli sürməyə çalışırlar.

Yeri gəlmişkən, Paşinyanın tərəfdarları parlament binasının qarşısına toplaşaraq, liderlərinin tələbi əsasında mitinq keçirirlər. Lakin buna baxmayaraq, Nikol Paşinyan jurnalistlərlə söhbətində növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı deyib ki, parlament gücləri ilə ümumi razılığa gələ biləcəyinə ümid edir. "Ümid edirəm ki, razılığa gələcəyik. Mən istefa verəcəm və heç kim baş nazir postuna namizədliyini irəli sürməyəcək. Ona da ümid edirəm ki, onlar vəziyyəti düzgün qiymətləndirəcəklər", deyə Paşinyan bildirib.

### "Çiçəklənən Ermənistan", Daşnaksyutun partiyaları, eləcə də "Tsarukyan" blokuna ultimatum xarakterli hədə

O, Ermənistan parlamentinin spikeri və parlament gücləri ilə görüşündə bildirib ki, ölkədə siyasi böhrandır. Eyni zamanda, Paşinyan onun tələblərinin yerinə yetirilməyəcəyi halda, ultimatum dili ilə danışıb və sərt addımlara gedəcəyini istisna etməyib : "Bu böhranı aşmaq lazımdır. Belə hesab edirəm ki, Respublika, "Çiçəklənən Ermənistan", Daşnaksyutun partiyaları, eləcə də, "Tsarukyan" bloku bu vəziyyəti daha da gərginləşdirməyəcəklər. Onlar, nəzəri olaraq, öz namizədlərini irəli sürə və onu seçə bilərlər. Ancaq bununla yanaşı, anlamalıdırlar ki, onların bu seçimi yumşaq desək, neqativ reaksiyalara səbəb olacaq və bu düşünülmüş ssenari kimi qəbul edilməyəcək. Hesab edirəm ki, mənim istefam üçün gün müəyyənləşdiriləcək və onlar baş nazirliyə öz namizədlərini irəli sürməyəcəklər. Nəticədə, dekabrda növbədənkənar seçkilər keçiriləcək".

Maraqlıdır ki, ortaq məxrəcə gəlinməməsinə, dəqiq qərarların verilməməsinə rəğmən, Paşinyan hər üç tərəfin namizəd irəli sürməyəcəklərini də bildirib.

### Qanun dəyişikliyinə səs verən nazirləri keçirdiyi mitinqdəcə işdən çıxardı

Bu arada, digər maraqlı məqam da diqqətdən yayınmayıb. Sözügedən tələblərlə bağlı keçirilən mitinqdə Nikol Paşinyan elə oradaca "Daşnaksyutun"dan və "Çiçəklənən Ermənistan" Partiyasından olan nazirləri vəzifələrindən azad edib. O, bunu belə əsaslandırıb ki, o güclər ki, parlamentdə "Ermənistanın Milli Məclisinin reqlamenti" qanununda dəyişiklərin edilməsinə imza atıbsa, onlar əks-inqilabçılardır.

Beləliklə, fakt budur ki, Ermənistandakı siyasi böhran məcradan çıxaraq, vəziyyətin daha da gərginləşməsinə doğru istiqamət alıb. Əgər Nikol Paşinyanın tələbləri yerinə yetirilməzsə, ölkədə növbəti qiyam dalğasının baş qaldıracağını indidən proqnozlaşdırmaq olar.

***Rövşən NURƏDDİNOĞLU***

# AXCP-də təlatümlü vəziyyət hökm sürür

## Mais Səfərli: "Əli Kərimlinin bloggerlikdən başqa bir fəaliyyəti yoxdur"

***- Mais bəy, AXCP-də baş verən gərginlik fonunda MNTK-nın sədri Aydın Əliyev də Əli Kərimliyə qarşı sərt ittihamlarla çıxış edib. Bu, o deməkdirmi ki, yaxın günlərdə AXCP-dən növbəti istefalar baş verəcək?***

- Bu gün AXCP adlı təşkilatın ancaq adı var. Bu təşkilat bu illər ərzində son dərəcədə zəifləmiş və öz tərəfdarlarını itirmişdir. Bunun da səbəbi həmin partiya daxilində yenidənqurma işlərinin aparılmaması və normal bir partiya kimi fəaliyyət göstərə bilməməsidir. İllər boyu da keçirilmiş bütün seçkiləri uduza-uduza gəlib. AXCP və digər radikal müxalifət düşərgəsində təmsil olunan partiyalara rəhbərlik edənlər yalnız özlərini düşünür və siyasətə gəlir mənbəyi kimi baxırlar. Ona görə də, üzləşdikləri ardıcıl seçki məğlubiyyətlərinə baxmayaraq, sədrlikdən istefa vermirlər. Demək olar ki, radikal müxalifət partiyaları yalnız öz şəxsi maraqları və xaricdəki ağaları üçün çalışırlar. Müxalifət düşərgəsindən istefaların və bir-birinə yönələn qarşılıqlı ittihamların baş verməsi, əslində, qanunauyğundur. Yəni normal siyasi fəaliyyəti olmayan və normal partiya quruculuğu aparılmayan təşkilatda bu proseslərin baş verməsi labüddür. Fakt budur ki, Əli Kərimlinin səhv siyasət aparması nəticəsində, çoxlu sayda insanlar partiyanı tamamilə tərk edib gediblər. Bu gün vaxtilə AXCP-ni quran şəxslərdən heç biri artıq o partiyada qalmayıb, hamısı istefa verib. Bəli, bu gün AXCP-də təlatümlü vəziyyət hökm sürür. Bu baxımdan, demək olar ki, AXCP-dən növbəti istefalar baş verəcəkdir.



Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir

***- AXCP-nin dağılması ilə Əli Kərimli siyasətdən gedəcəkmi?***

- Dağıdıcı müxalifət düşərgəsində özlərini liderlər adlandıran şəxslər var ki, onlar, sadəcə olaraq, əllərindən başqa iş gəlmədiyinə görə, boşboğazlıq edirlər. Əslində, bu, normal siyasi fəaliyyətin həmin şəxsdə olmadığından xəbər verir. Əslində, normal siyasi fəaliyyət göstərən partiyalar 1-2 dəfə seçkiləri uduzursa, ondan o partiyanın rəhbər orqanlarının üzvləri tamamilə dəyişilir, yenilənir və partiyada yeni quruculuq işləri aparılır. Amma bütün bunların heç biri hazırkı müxalifət partiyalarında baş vermir. Ə.Kərimliyə gəldikdə isə, onun bloggerlikdən başqa, bir fəaliyyəti yoxdur. Yəni sosial şəbəkələrdə müəyyən çağırışlar və bəyanatlar verməkdən başqa, heç bir fəaliyyətin sahibi deyil. Əslində, müxalifət düşərgəsində nə bir partiya var, nə də ki, bir siyasi lider. Əslində, onlar görüntü yaratmaq istəyirlər ki, biz də varıq. Reallıqda isə, bunlar yoxdurlar.

***- Ümumiyyətlə, iddialı müxalifət partiya sədrləri arasında baş verən gərginliklər partiyaların sıradan çıxmasına gətirib çıxarır. Bunu liderlərin səhv və düşünülməmiş siyasəti ilə əlaqələndirmək olarmı?***

- Bəli, radikal müxalifət düşərgəsində partiyaların sıradan çıxması o partiyalara rəhbərlik edən liderlər ilə bağlıdır. Çünki bu liderlər normal siyasi fəaliyyətlə məşğul deyillər. Demək olar ki, bu partiya sədrlərinin işi ancaq ağa qara yaxmaqdan ibarətdir. Bir sözlə, onların fəaliyyəti iftiradan və yalandan ibarətdir. Bildiyiniz kimi, radikal müxalifət partiyaları arasında, artıq uzun illərdir ki, dava- dalaş gedir. Yəni sözügedən partiyaların zəifləmələrindən də biri, məhz o partiyaların bir-birinə amansız zərbələr vurmasıdır. Demək olar ki, müxalifət liderləri birbirini sıradan çıxarmaq üçün hər şeyi edir. Müxalifətin arasında gedən bu savaşın da əsas məqsədi öz düşərgələri daxilində birincilik uğrunda gedən mübarizədir. Yəni onlar arasında olan bu savaş ana müxalifət uğrunda gedən mübarizədir. Bu dava-dalaş da onları çox acınacaqlı bir vəziyyətə salan əsas amildir. Bu gün də onlar arasında bu savaş davam edir.

**GÜLYANƏ**

# Qabil Hüseynli: "Zatulin ermənilərin pullu nökəridir"

***"Rusiya Dövlət Dumasının komitə sədrinin müavini Konstantin Zatulin çox avantürüst bir adamdır". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli Konstantin Zatulinin Azərbaycan əleyhinə səsləndirdiyi növbəti aqressiv açıqlamasına münasibət bildirərkən deyib.***



Onun sözlərinə görə, Rusiya Dövlət Dumasının komitə sədrinin müavini hər zaman Azərbaycana kin bəsləyib və provaktor bir adamdır: "O bir növ ermənilərin pullu nökəridir. Bu adam ümumiyyətlə post-Sovet məkanındakı bütün hadisələri özü bildiyi kimi, həm də avantürüstcəsinə şərh edib. O cümlədən Zatulin Dağlıq Qarabağla bağlı həmişə sərsəm açıqlamalar verir. Konstantin Zatulin dəfələrlə Dağlıq Qarabağla bağlı oyuncaq rejimin qulluğunda dayanıb. Çox şübhəsiz ki, bunun müqabilində pullar qazanıb. Zatulin qondarma Dağlıq Qarabağda keçirilən "parlament seçkiləri"ndə iştirak edib və həmin şəxs Azərbaycan Xarici İşlər Nazirliyinin arzuolunmaz şəxslər siyahısına daxil edilib. Bu fikirlər Rusiya dövlətinin mövqeyini əks etdirmir. O sadəcə olaraq ermənilərin sifarişi ilə danışır. Bu mənada onun nə dedikləri reallığı əks etdirmir. Son iki ayda Azərbaycan Prezidenti və Rusiya Prezidenti iki dəfə görüşüblər. Putinin son Bakı səfərində də Azərbaycan-Rusiya münasibətlərinə dair Rusiya dövlətinin mövqeyi açıq şəkildə ifadə olunub. Ona görə də Zatulin kimi bir yaramazın, provokatorun fikirləri yalnız kiməsə - ermənilərin hansısa dairələrinəsə xidmət etmək məqsədi daşıyır".

# Azərbaycanda II Robot Olimpiadası keçiriləcək



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyasının və "Gənclərin Təhsil, Təlim, Peşə və İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə oktyabrın 6-da Bakı İdman Sarayında II Robot Olimpiadası keçiriləcək.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 8-19 yaşlı yeniyetmə və gəncləri əhatə edəcək olimpiadada 20 təhsil müəssisəsindən 54 komanda yarışacaq. Yarışlar 4 kateqoriya üzrə keçirilir və yekunda qalib komandalar noyabrın 16-18-də Tailandda keçiriləcək Dünya Robot Olimpiadasında iştirak hüququ qazanacaq. Dünyanın ən böyük robototexnika yarışı olan Dünya Robot Olimpiadası 2004-cü ildən etibarən hər il fərqli mövzular üzrə müxtəlif ölkələrdə keçirilir. İlk dəfə Sinqapurda keçirilən olimpiadaya 12 ölkə qatılsa da, iştirakçı ölkələrin sayı artıq 70-i keçib.

Azərbaycanda gənclərin elmi-texniki biliklərinin inkişaf etdirilməsinə göstərilən xüsusi diqqət nəticəsində ötən il oktyabrın 7-də Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Robototexnika Mühəndisliyi Akademiyasının və "Gənclərin Təhsil, Təlim, Peşə və İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə Dünya Robot Olimpiadasının Azərbaycan üzrə ilk seçim yarışı keçirilib. Həmin yarışda 8 təhsil müəssisəsindən 22 komanda iştirak edib. Yarışda müxtəlif kateqoriyalar üzrə qalib gələn komandalar Dünya Robot Olimpiadasının noyabrın 10-12-də Kosta-Rikada keçirilən final mərhələsində iştirak hüququ əldə edib. Beləliklə, Azərbaycan ilk dəfə Dünya Robot Olimpiadasının finalında təmsil olunub. Azərbaycan komandası olimpiadanın finalına Gənclər və İdman Nazirliyinin dəstəyi ilə qatılıb. Dünya Robot Olimpiadasında ilk dəfə iştirak etməsinə baxmayaraq, Azərbaycan 71 ölkə arasında 17-ci pillədə qərarlaşıb. Xatırladaq ki, Azərbaycan 2017-ci ilin sonunda Dünya Robot Olimpiadasının həqiqi üzvlüyünə qəbul edilib.

## İmişli rayonunda brakonyer saxlanılıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları İmişli rayonunun Qaraqaşlı kəndi ərazisində icazəsiz ova cəhd edən şəxsi saxlayıblar.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırma zamanı brakonyerin İmişli şəhər sakini Rüstəm Ələsgərov olduğu müəyyənləşib. Faktla bağlı R.Ələsgərov barəsində protokol tərtib olunub. Brakonyer inzibati qaydada1000 manat cərimələnib və ondan ov tüfəngi götürülüb.

## Sosial şəbəkələrdə insanları dələduzluq yolu ilə aldadaraq soyğunçuluq törədən şəxs yaxalanıb

Sosial şəbəkələrdə insanları dələduzluq yolu ilə aldadaraq onlara qarşı soyğunçuluq törətməkdə şübhəli bilinən şəxs polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin "102 - Zəng Mərkəzi"nə müraciət edən qadın sakin avqustun 26-da Nadir adlı şəxsin onu aldadaraq 20 min manat dəyərində qızıl əşyalarını aldığını bildirib.

Məlumatla əlaqədar dərhal Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsinin əməkdaşları tərəfindən müvafiq tədbirlər görülüb. Faktla bağlı Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsi ilə cinayət işi başlanılıb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən şəxs - özünü Nadir kimi təqdim edən Xırdalan şəhər sakini Arif Bayramov polis əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, Arif Bayramov sosial şəbəkədə qızıl-zinət əşyaları satan qadınla əlaqə saxlayaraq paytaxt ərazisində bir neçə qızıl satışı dükanının olduğunu bildirib və onda olan qızılları almaq istədiyini bildirib. Qadın Gəncədə olduğunu deyərək qızılların əmisi vasitəsilə göndərəcəyini deyib. Avqustun 26-da həmin şəxs paytaxt ərazisində qadının əmisi ilə görüşüb, onun avtomobilində qızıl əşyalarına baxaraq bəyənib və onların qaşlarını yoxlatdırmaq məqsədilə dükanda göstərmək istədiyini bildirib. Bunun üçün qadının əmisi ilə avtomobildən düşən həmin şəxs qızılları da götürərək aradan çıxıb. İstintaqla, həmçinin A.Bayramovun dörd analoji cinayət əməlini törətməsinin də üstü açılıb. Polis əməkdaşları soyğunçuluq etməkdə şübhəli bilinən A.Bayramovun başqa cinayətlərdə iştirakını istisna etmirlər. Onun əməllərindən zərərçəkən şəxslər bu barədə Daxili İşlər Nazirliyinin "102 - Zəng Mərkəzi"nə və ya Nərimanov Rayon Polis İdarəsinə müraciət edə bilərlər.

# İnsan haqları sistemində hüquq normalarının yeri və rolu

*Hüquq cəmiyyətdə və dövlətdə azadlığın formal konkret-tarixən şərtləşdirilmiş ölçüsü qismində çıxış edir. Ona görə də, müasir hüquq ədəbiyyatında hüquq norması dedikdə, ilk növbədə, insan davranışının ümumməcburi formal-müəyyən qaydası nəzərdə tutulur. Həmin qayda cəmiyyət, dövlət tərəfindən müəyyən və təmin edilir. Ümumməcburi qaydalar qanunvericilik hakimiyyətinin rəsmi dərc edilmiş qanunvericilik aktlarında təsbit olunur. Belə qaydalar ictimai münasibətlər iştirakçılarının hüquq və vəzifələrinin müəyyən edilməsi yolu ilə ictimai münasibətlərin, bilavasitə özünün tənzimlənməsinə istiqamətləndirilir.*

V.V.Lazarev yazır: "Hüquq norması dedikdə, ictimai münasibətlər iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən və tənzimləyən, onların davranışının nümunəsi, etalonu və miqyası qismində çıxış edən dövlətin tanıdığı və təmin etdiyi ümumməcburi qayda başa düşülür".

L.İsgəndərovanın fikrincə isə, digər sosial normalardan fərqli olaraq, hüquq normasının aşağıdakı mühüm əlamətlərini fərqləndirmək olar:

**1)** hüquq norması insanın azad ifadəsi və davranışının ölçüsüdür. Bu məqamın başa düşülməsi və qavranılması, konkret fərd tərəfindən mənimsənilməsi həm daxili amillərdən (fərdin zəkasından, xarakterinin növündən, mədəniyyət səviyyəsindən), həm də xarici hallardan (ictimai münasibətlərin qaydalılıq dərəcəsindən, normaların təminatlılığından, gücdən) asılıdır;

**2)** hüquq norması cəmiyyət üzvlərinin hüquq və vəzifələrinin müəyyənləşdirilməsi və təsbit edilməsi formasıdır. Vəzifələr hüququn subyektlərinin azad hərəkət diapazonunu göstərən yönüm şəklində çıxış edirlər. Hüquq münasibətlərinin müxtəlif subyektləri, hüquqların müəyyən kompleksinə malik olmaqla, eyni vaxtda böyük sayda vəzifələr daşıyırlar.

Hüquqlarsız vəzifələr, vəzifələrsiz isə hüquqlar ola bilməz;

**3)** hüquq norması ümumməcburi xarakterli davranış qaydalarından ibarətdir. Bu, aşağıdakılarda təzahür edir:

**a)** bu və ya digər subyekt müəyyən zaman ərzində hansı ərazidə, hansı tərzdə və hansı istiqamətdə hərəkət etməlidir;

**b)** hərəkət cəmiyyət nöqteyi-nəzərindən düzgün olduğuna görə, hərəkət tərzi konkret fərd üçün məcburidir;

**c)** ümumi xarakter daşıyır, hamı və hər kəs üçün bərabər və eyni miqyaslı çıxış edir;

**4)** hüquq norması formal müəyyən edilən davranış qaydasıdır. Normaların daxili müəyyənliyi hüquq və vəzifələrin məzmununda və həcmində, normanın pozulduğu hallarda onun nəticələrindəki dürüst göstərişlərdə təzahür edir. Zahiri müəyyənlik ondan ibarətdir ki, hər bir hüquq norması rəsmi sənədin normativ-hüquqi aktın (məsələn, Cinayət Məcəlləsinin, Mülki Məcəllənin və s.) konkret bölməsində, konkret fəsildə və onun maddəsində, maddənin hissəsi və ya bəndində (abzasında) təsbit edilir;

**5)** hüquq norması dövlət tərəfindən təmin edilən davranış qaydasıdır. Vətəndaşların hüquq və azadlıqlarının, hüquq qaydasının və qanunçuluğun pozulduğu hallarda dövlətin hüquqi məcburiyyətinin mümkünlüyü hüquq normasının mühüm təminatlarından biridir;

**6)** hüquq norması sistemlilik keyfiyyətinə malikdir. Bu, normaların strukturlu dözümündə, hüququn müxtəlif sahələrinin normalarının ixtisaslaşdırılması və korporasiyasında təzahür edir.

Fəlsəfə üzrə elmlər doktoru Ə.Abbasov hüquq normaları yaradan dövlətlə əlaqədar aşağıdakı mülahizələrini irəli sürür:

- İstənilən hakimiyyət insanın təbii və ayrılmaz hüquqlarının təmin edilməsi və onların müdafiəsi məqsədi daşıyır. Bu hüquqlara - azadlıq, mülkiyyət, təhlükəsizlik və zülmə müqavimət hüquqları daxildir.

- Hər bir suveren hakimiyyətin mənbəyi mahiyyət etibarı ilə xalqdır. Xalq suveren hakimiyyətin mənbəyini təşkil edir. Fərdlərin heç biri, həmçinin, onların birliyi xalqın iradəsi ifadə olunmayan hakimiyyətə malik ola bilməz.

- Dövlətin gücü və hakimiyyəti insanların və vətəndaşların hüquqlarının təmin olunması baxımından vacibdir. Bu güc ona sahib olanların şəxsi mənfəəti və maraqlarının qorunması məqsədi ilə deyil, hamının və hər bir kəsin mənafeyinə xidmət etmək üçün yaradılır.

- Vəzifəli hər bir şəxs ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə cəmiyyətə hesabat vermək öhdəliyi daşıyır. Bu, o deməkdir ki, cəmiyyətin belə hesabatı tələb etmək hüququ var.

- Konstitusiya, o cəmiyyətdə mövcuddur ki, orada insan hüquqları təmin olunur və hakimiyyətin bölgüsü prinsipi rəhbər tutulur.

Göründüyü kimi, həm Amerika Birləşmiş Ştatlarında, həm də Fransada qəbul edilmiş sənədlər insan hüquqlarının qanuniləşməsi istiqamətində çox uğurlu addımlar kimi dəyərləndirilə bilər. H.Qratsi, C.Lokk, Ş.Monteskye və başqa mütəfəkkirlərin insan hüquqları və dövlətlə əlaqədar fikir və ideyaları Amerikada qəbul olunmuş sənədlərdə təsbit edilən hüquqların təşəkkülündə vacib rol oynamışdır. Fransada qəbul olunmuş Bəyannamənin əsas qayəsini isə J.J.Russonun təbliğ etdiyi bərabərlik, xalqın iradəsi, suverenlik kimi fikirlər təşkil etdiyini desək, yanılmarıq. Həm Amerika Birləşmiş Ştatlarında qəbul edilmiş "İstiqlaliyyət Bəyannaməsi" və Konstitusiya, həm də Fransada qəbul edilmiş "İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi" dövlətin təməlində hakimiyyətin bölgüsü prinsipinin olması şərti ilə səciyyələnir. Bu sənədlər insan hüquq və azadlıqlarının konstitusiya səviyyəsində təmin olunması və müdafiə edilməsi istiqamətində pioner rolunu oynamışdır. Belə bir tərəqqiyə qovuşmaqda, əvvəldə qeyd etdiyim şəxslərdən başqa, Con Milton, Emmanuel Cozef Siyes, Bencamen Konstan, Con Stüard Mill, Tomas Cefferson, Ceyms Medison, Corc Vaşinqton, Tomas Peyn, Aleksandr Hamilton, Con Adams, İyeremiy Bentam, Bencamin Franklin kimi böyük şəxsiyyətlərin də xidmətləri danılmazdır.

İnsan haqlarının tarixi inkişafına nəzər salsaq, belə bir xronologiyanın şahidi olarıq. Feodalizmin hakim olduğu orta əsrlərdəki kilsə hakimiyyətinə qarşı yönəlmiş hüquq və azadlıqla əlaqəli fikirlər və həmin dövrün cəmiyyəti üçün səciyyəvi münasibətlərdən irəli gələn, burjuaziyanın təşəkkül tapması ilə genişlənərək, özündə təbii hüquq və ictimai razılaşmanın meyarlarını əks etdirmiş insan hüquq və azadlıqları ideyası daha sonralar Amerika Birləşmiş Ştatlarında və Fransada qəbul edilmiş sənədlərdə liberal-demokratik xüsusiyyətlərə malik hüquq və azadlıqlar kimi möhkəmlənmişdir. İnsan hüquq və azadlıqlarının həm sosial-fəlsəfi, həm də siyasi-hüquqi baxımdan tarixi inkişaf kontekstində öyrənilməsi onlarda fərdiyyətçilik ideyasının güclü olmasını göstərir. Hüquq və azadlıqların subyekti olan fərdə verilən dəyər və önəm dövlətin onu müdafiə etməsi, hüquqlarının tanınması və onların təmin olunması, pozulmasının qarşısının alınması kimi öhdəliklərinin yaranmasını şərtləndirmişdir.

L.İsgəndərova hüquqi normaların hüquqi şərtiliklə əlaqəsinə toxunaraq yazır:

"Hər şeydən əvvəl, hüquq normasının hüquqi şərtiliyini görmək lazımdır. Bu, normativlikdir. Normativlik, ümumiyyətlə, materiyanın və qismən də sosial materiyanın xassəsidir. Bu mənada, hüquq norması insan varlığında maddi və mənəvi aləmin hansısa hissəciyini (bioloji aspekti əks etdirir, sanki təbiəti qavramaq meyarını müəyyən edir və insanın emosional əhval-ruhiyyəsini ifadə edir (psixoloji aspekt).

Nəzərə almaq zəruridir ki, təbiətin amilləri ilə şərtləşən hüquq norması sırf sosial fenomendir (sosial aspekt). İnsanla əlaqəli olan real hadisə və proseslərin normativ xarakteri onun (insanın) sosial aləminin ən əhəmiyyətli xassəsidir. Ümumsosial planda hüquq norması aşağıdakı şəkildə çıxış edir:

**1)** insanların davranışının ictimai nüfuzla, sosial qüvvə və cəmiyyətdə hökmran olan doğruluq haqqında təsəvvürlərlə təmin edilmiş ədalətlilik miqyası;

**2)** təkrar olunan faktiki ictimai münasibətlərin tipikləşdirilmiş izləri;

**3)** əksəriyyətin maraqlarının ifadə edilməsi formaları.

Hüquq norması fərdi-sosial planda şəxsiyyətin maraqlarının, hüquq və azadlıqlarının müdafiə vasitəsi və eyni zamanda da, zəruri hallarda davranış azadlığının (davranış ölçüsünün) məhdudlaşdırılması vasitəsidir.

Nəhayət, nəzərə almaq lazımdır ki, hüquq norması insanın intellektual şüurlu fəaliyyətinin, burada həlledici əhəmiyyətə malik olan ağılın və iradənin nəticəsidir (intellektual-ideoloji aspekt). Ona görə də, hüquq normasını dünyəvi qaydanın, sadəcə olaraq, hissəciyi hesab etmək olmaz. Hüquq normasının yaradılması həmişə mürəkkəb fikri-fəaliyyət (idrak) prosesi olmuşdur. O, konkret insanın, müxtəlif sosial qrupların və bütövlükdə, cəmiyyətin artan tələbatlarından və mənafelərinin təbiətindən irəli gəlmişdir. Bunların, demək olar ki, hamısı toqquşan tələbatlardır və buna görə də, ziddiyyətlərin müxtəlifliyi (dini, ideoloji, iqtisadi, siyasi) ilə müşayiət olunurlar. Həmin ziddiyyətlərin dərk edilməsi, öyrənilməsi və həlli cəhdləri insan nəslinin davam etdirilməsinin təbii səyləri ilə şərtləşmişdir. Məhz bu səylər, son nəticədə, hüquq normasının aşağıdakı məqsədlər üçün işlənib-hazırlanmasına gətirib çıxarmışdır:

a) müvafiq dövr və cəmiyyət üçün insanların normal həyat şəraitini təmin edən tənzimləmə variantının münasib olanının seçilməsi;

b) sosial gerçəkliklər haqqında ümumiləşdirilmiş informasiyalar;

c) idrak fəaliyyəti vasitələri;

ç) insanlar arasında ziddiyyətlərin (münaqişələrin) konkret həlli vasitələri.

Bununla əlaqədar, daha bir məsələyə diqqət yetirmək zəruridir. Dövlətin əmələ gəlməsi ilə cəmiyyətdə sosial-normativ tənzimetmənin mənzərəsi dəyişikliyə məruz qalmışdır. Bunun nəticəsində, cəmiyyətdə ictimai münasibətlərin tənzimlənməsində xüsusi çəkisi olan əxlaq normalarının, dini normaların, adət və ənənələrin rolu azalmağa başlamış, tədricən ictimai münasibətlərin daha böyük sferaları dövlət tərəfindən verilən hüquq normaları ilə tənzimlənməyə başlamışdır. İnkişaf etmiş müasir hüquq sistemlərində bütün hüquq normaları mahiyyət etibarilə bu və ya digər dərəcədə dövlət tərəfindən müəyyən edilmiş normalardır.

Sosial-hüquqi (dövlət aspektində) aspektdə hüquq norması aşağıdakı şəkildə çıxış edir:

1) rəsmi sənədlərdə (normativ-hüquqi aktlarda) dərc və təsbit edilən və dövlət tərəfindən təmin olunan formal-müəyyən məcburi davranış qaydaları;

2) sosial sinfin və ya təbəqənin hakimiyyətinin qanunvericilik yolu ilə təsbit edildiyi siyasi sistemlərdə ictimai münasibətlərin sosial-sinfi tənzimləyicisi."

Beləliklə, hüquq norması təbii-tarixi köklərə malikdir və o, sosial cəhətdən insan fəaliyyətinin məhsuludur. Hüquq normasının sosial şərtiliyi də bundan ibarətdir. Hüquq norması fərdin azadlıq elçisi ilə cəmiyyətin azadlığı arasında uyğunluğu əks etdirir. Hüquq norması ictimai münasibətlərin alternativi olmayan modeli və tənzimləyicisi qismində çıxış edir. Bu, hüquq normasının təbii-tarixi missiyasıdır.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Avtomobildə marixuana, bıçaq, tapança, patron və ratsiya aşkarlanıb

Gömrükçülər narkotik vasitə və silah-sursatın gömrük orqanına bəyan olunmadan ölkə ərazisinə gətirilməsinin qarşısını alıblar. Dövlət Gömrük Komitəsinin (DGK) mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildiriblər ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin “Mazımçay” gömrük postunda Gürcüstandan gələn Rusiya Federasiyası vətəndaşının idarə etdiyi “Ford Mondeo” markalı minik avtomobilinə baxış keçirilib.

Yoxlama zamanı öncə avtomobilin yük yerindəki sellofan bükülünün içində 1 ədəd kabura ilə birlikdə bıçaq və 1 ədəd “Kenwood” markalı, LB-75L model ratsiya aşkarlanıb. Sonra yük yerində, ehtiyat təkərin yanında sellofana bükülmüş siqaret qutusunda 20 qram narkotik vasitə - marixuana aşkar edilib. Daha sonra avtomobilin salonunda, cihazlar panelinin sağ hissəsindəki sandıqçada isə üzərində “Maqnum; patron 9 mm travmatiçeskiy” markalanma yazısı olan 23 ədəd patron və 1 ədəd tapança aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

## Əgər 2 ədəd bananı isti suyla əzib qəbul etsəniz...

Bananda C, B1, B2, PP, E vitaminləri, şəkər, karotin və fermentlər vardır. O, üzvi, xüsusilə alma turşuları, efir yağları və mədə-bağırsaq xəstəliyində faydalı nişasta ilə zəngindir. Belə ki, kalium bananda xüsusilə çoxdur, belə ki, orta ölçülü bananda onun miqdarı 450 mq-a qədər olur. Banan insan orqanizmində serotonin əmələgətirmə qabiliyyətinə malikdir ki, buna da xoşbəxtlik harmonu deyirlər.



Arterial təzyiqi olan adamlara xeyirlidir. Norveç alimləri müəyyən ediblər ki, hər gün 2 banan yeyən adamların təzyiqi aşağı salması üçün dərman tələb olunmur. Qəbizlikdə 150 qr bananın üzərinə küncüt səpib yemək. Bunu 7 gün davam etdirmək. Latın Amerikasında göy öskürəyi və güclü öskürəyi bananla müalicə edirlər. Çox dəymiş 2 ədəd bananı ələkdən keçirtib bu kütlənin üzərinə 1 stəkan isti su tökün. Bu içkidən qaynar halda, gündə 1-2 stəkan qurtum-qurtum için.

## Baş infeksionist: Son günlər yayılan xəstəlik qrip virusu deyil



Son günlər ölkəmizdə burun axması, boğaz ağrısı, halsızlıq və hərarətin yüksəlməsi ilə müşayiət olunan virus epidemiyası yayılıb. Mütəxəssislərin rəyinə görə xəstəlik qripə bənzəsə də, qrip virusu deyil.

AZƏRTAC xəbər verir ki, respublikanın baş infeksionisti Cəlal İsayev həmin virusun yayılmasının havanın dəyişkənliyi ilə bağlı olduğunu deyib: “Qrip virusları zamanı xəstəlik adətən daha ağır keçir, ilk günlər intoksikasiya əlamətləri olur, sonradan zökəm əlamətləri də qoşulur. Bu xəstəlikdə isə zökəmlə intoksikasiya əlamətləri eyni vaxtda başlayır və ağırlığı ilə nəzərə çarpmır”.

Həkim-infeksionistin verdiyi məlumata görə, virusla əlaqədar həlelik müalicə müəssisələrinə müraciət edən olmayıb. Xəstəlik yüngül keçdiyi üçün virusa yoluxanlar ev şəraitində müalicə olunaraq 2-3 günə sağalırlar. O, bu cür infeksiyalara yoluxmamaq üçün güclü immunitetə malik olmağın vacibliyini bildirib: “Bu isə daha çox qidalanmadan asılıdır. Orqanizmə daxil olan hər virus xəstəlik törətmir və burada hər kəsin fərdi xüsusiyyəti əsas rol oynayır. Daha çox zəif immunitetə malik olanlar belə viruslar zamanı daha tez xəstəliyə yoluxurlar”.


**ELAN**

Əliyev Abbas Məhəmməd oğluna məxsus JN 80 nömrəli şəhadətnamə və JN 216 nömrəli pay torpaq dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Temurova Səbinə Məhərrəm qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.


## Məsud Özil: “Bakı Olimpiya Stadionu, çox sağ ol!”




Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsinin ikinci turu çərçivəsində Bakı Olimpiya Stadionunda Ağdamın “Qarabağ” klubu ilə qarşılaşan İngiltərənin “Arsenal” komandasının türk əsilli futbolçusu Məsud Özil ölkəmizdə mehriban qarşılanmasından məmnunluğunu bildirib. SİA-nın məlumatına görə, futbolçu “Twitter”dəki şəxsi səhifəsində ingilis dilində yazıb: “Bu axşam çox mehriban qarşılandıq. Bakı Olimpiya Stadionu, çox sağ ol!” Xatırladaq ki, oktyabrın 4-də oynanılan görüşdə “Arsenal” klubu 3:0 hesabı ilə qələbə qazanıb.

## Makqreqor Nurməhəmmədovla döyüşdən 100 milyon dollar qazana bilər



İrlandiyalı MMA döyüşçüsü Konor Makqreqor UFC-nin rusiyalı qalibi Həbib Nurməhəmmədovla döyüşdən 100 milyon dollar gəlir əldə edə bilər. AZƏRTAC xəbər verir ki, bu barədə “TMZ” xəbər portalına UFC-nin prezidenti Deyna Uayt bildirib. İrlandiyalının bu döyüşdən 100 milyon dollar qazana biləcəyi barədə suala cavabında UFC-nin prezidenti bildirib: “Əlbəttə, qazana bilər, Makqreqorun “PPV” (pay-per-view sistemi üzrə yayım) göstəricilərinə diqqət yetirin. O, bütün zamanların ən böyük “PPV” göstəricilərinə sahib olan biridir”. Onun sözlərinə görə, irlandiyalının rusiyalı ilə döyüşdən Meyvezerlə qarşılaşmadan qazandığından daha çox gəlir əldə etmə şansı var. D.Uayt hesab edir ki, K.Makqreqor və H.Nurməhəmmədovun görüşünün “pay-per-view” sistemi üzrə yayımı 2,6-3 milyon dəfə alınacaq. Xatırladaq ki, 2017-ci il avqustun 27-də Las-Veqasda Konor Makqreqor və Floyd Meyvezer arasında boks qaydaları üzərində döyüş keçirilmişdi. Döyüşün 10-cu raundunda texniki nokautla F.Meyvezer qələbə qazanmışdı. Bu döyüşə görə F.Meyvezer 275 milyon dollar, K.Makqreqor isə 85 milyon dollar qazanmışdı. “Showtime” məlumatına əsasən, döyüşün “pay-per-view” sistemi üzrə yayımı 4,3 milyon dəfə alınmışdı.

## 2022-ci ildə Ümumdünya Şahmat Olimpiadası Minskdə keçiriləcək

2022-ci ildə Ümumdünya Şahmat Olimpiadasına Minsk ev sahibliyi edəcək. AZƏRTAC xəbər verir ki, bu qərar Gürcüstanın Batumi şəhərində Beynəlxalq Şahmat Federasiyası (FIDE) Baş Assambleyasının iclasında qəbul edilib.

Şahmat olimpiadasının bu ölkədə keçirilməsi barədə müraciətini Belarus FIDE-nin Prezident Şurasının bu ilin aprelində Minskdə təşkil olunan iclası zamanı vermişdi. Belarus müraciətlər müsabiqəsində Cənubi Koreya və Tunisi geridə qoyub. Belarusun idman və turizm naziri Sergey Kovalçuk ölkəsinin imkanları barədə assambleya üzvlərinə məlumat verib. 2018-ci il Ümumdünya Şahmat Olimpiadası bu günlərdə Batumidə keçirilir. Minsk 2022-ci ildə təşkil ediləcək 45-ci Ümumdünya Şahmat Olimpiadasına estafeti 2020-ci ildə Xantı-Mansiyskdən qəbul edəcək.

## Çempionlar Liqasında ikinci turun ən yaxşı futbolçusunun adı açıqlanıb

Futbol üzrə UEFA Çempionlar Liqasında həftənin ən yaxşı futbolçusunun adı açıqlanıb. UEFA-nın saytında yer alan məlumata görə, azarkeşlər arasında keçirilən səsverməyə əsasən, “Barselona”nın hücumçusu Lionel Messi ən yaxşı oyunçu seçilib. O, argentinalı futbolçu, “Yuventus” klubunun hücumçusu Paolo Dibala, “Roma”nın hücumçusu Edin Dzeko və PSG komandasının əsas qol silahı sayılan Neymarı qabaqlayıb. “Barselona”nın İngiltərənin “Tottenhem” klubuna 4:2 hesabı ilə qalib gəldiyi görüşdə Messi iki qol və bir məhsuldar ötürmə verib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**